RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 245 (8268) BAZAR, 3 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Demokratik inkişaf yolu Azərbaycanın öz seçimidir

## Prezident İlham Əliyevin uğurlu diplomatiyası ölkəmizi müasir geosiyasi və geoiqtisadi proseslərin fəal iştirakçısına çevirib

Müxtəlif dövlətlərin maraqlarının kəsişmə məkanında, Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi regionda yerləşən Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Regionun və bütövlükdə Avropa siyasi coğrafiyasının ən mühüm aktorlarından birinə çevrilən Azərbaycan həm də dünya birliyində mövqeyini getdikcə möhkəmləndirir və söz sahibinə çevrilir. Bütün bu uğurları şərtləndirən isə Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri, uğurlu daxili və xarici siyasətidir.

Hər keçən gün nüfuzu yüksələn Azərbaycan böyük uğurlara imza atmaqdadır. Təkcə ötən ay ictimai-siyasi, hərbi və humanitar sahələrdə əldə edilən tarixi nailiyyətlərə nəzər yetirsək, bunun şahidi olarıq:

- *14-15 oktyabr - Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VİI Zirvə Görüşü keçirildi və təşkilata sədrlik Qırğızıstandan Azərbaycana keçdi.*
- *15 oktyabr - Parisdə keçirilən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) toplantısında Azərbaycan qurumun İnkişafa Dəstək Komitəsinə tamhüquqlu üzv kimi qəbul olundu.*
- *24 oktyabr - Dünya Bankının "Doing Business-2020" hesabatında Azərbaycan top-20 ən islahatçı ölkə sırasında yer aldı.*
- *25 oktyabr - ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı 2022-ci ildə keçiriləcək konqresə evsahibliyi etmək isəyən şəhərlər sırasında olan Bakı şəhəri Sinqapur, Rio-de-Janeyro və Nyu Dehli şəhərlərindən daha çox səs topladı. 3 ildən sonra Bakıda 68 ölkəni təmsil edən 398 təşkilatın üzv olduğu federasiyanın 6 mindən çox üzvünün iştirakı ilə möhtəşəm konfrans keçiriləcək.*
- *25-26 oktyabr - Azərbaycan müstəqillik tarixində ən mühüm konfranslardan birinə evsahibliyi etdi. Bakıda BMT-dən sonra ikinci böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının XVİİİ Zirvə Görüşü keçirildi və quruma sədrlik Venesueladan Azərbaycana keçdi.*
- *30 oktyabr - Bakıda MDB ölkələrinin Müdafiə Nazirləri Şurasının 77-ci iclası keçirildi. MDB ölkələrinin 2025-ci ilədək hərbi əməkdaşlıq konsepsiyası təsdiq edildi.*

Müstəqilliyinin bərpasından sonra Azərbaycan dövlətinin yaşadığı müasir tarixə nəzər salsaq, aydın şəkildə görərik ki, respublikamız bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilib.

Son 16 ildə Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycan siyasi və iqtisadi cəhətdən xeyli inkişaf edib, beynəlxalq aləmdə mövqelərini daha da gücləndirib. Bu gün hər bir azərbaycanlı cənab İlham Əliyevin həyata keçirdiyi siyasi-iqtisadi, sosial-mədəni kursun, xarici siyasətinin uğurlu nəticələr verdiyinin şahididir. Dövlət başçısı müstəqil siyasəti ilə bütün məsələlərlə bağlı öz mövqeyini qətiyyətlə ifadə edir, prinsipial məsələlərdə beynəlxalq kürsülərdən səsini ucaldır, ədaləti və qanunun aliliyini təbliğ və müdafiə edir. Prezidentin nümayiş etdirdiyi praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma ölkəmizin milli maraqlarının təmin olunmasında önəmli rol oynayır.

Ardı 2-ci səh.

## Y.V.Adıgözəlovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Yalçın Vasif oğlu Adıgözəlov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 2 noyabr 2019-cu il*

## Azərbaycan ABŞ-a etiraz notası verib

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaradılmış qanunsuz rejimin "təmsilçisi" Masis Mayilyanın ABŞ-a səfər etməsi ilə əlaqədar Birləşmiş Ştatların ölkəmizdəki səfiri Örl Litsenberqer Xarici İşlər Nazirliyinə çağırılıb və etiraz notası təqdim edilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, notada qondarma qurumun Azərbaycanın işğal olunmuş ərazilərindən səfər edən "nümayəndələr"inə ABŞ tərəfindən viza verilməsinə etiraz edilib və bunun Ermənistan-Azərbaycan münaqişəsi üzrə sülh prosesinə zərbə vurduğu qeyd olunub. Vurğulanıb ki, bu kimi səfərlərə icazə verilməsi ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədri mandatında vasitəçi kimi öhdəlikləri, eləcə də dövlətlərin suverenliyinə hörmət, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi beynəlxalq hüququn təməl prinsipləri ilə ziddiyyət təşkil edir.

Xarici İşlər Nazirliyi beynəlxalq birliyin mühüm və cavabdeh üzvü kimi ABŞ-ın BMT Nizamnaməsində təsbit olunmuş prinsipləri qəti dəstəkləyərək Ermənistan-Azərbaycan münaqişəsi üzrə BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum qətnamələrinin yerinə yetirilməsinə mühüm töhfə verəcəyini və münaqişənin həlli prosesinə mənfi təsir edəcək hər hansı addımdan çəkinəcəyini gözlədiyini ABŞ tərəfinin diqqətinə çatdırıb.

Səfir Ö.Litsenberqer Dağlıq Qarabağdan səfər edən şəxslərin ABŞ Konqresinin bəzi üzvləri tərəfindən Vaşinqtonda qəbul edildiklərindən xəbərdar olduqlarını bildirərək ABŞ-ın ATƏT-in Minsk qrupu prosesini dəstəklədiyini və Dağlıq Qarabağdakı rejimi tanımadığını vurğulayıb.

## Hədəf qeyri-neft sektoruna daha çox xarici investisiya cəlb etməkdir

Hər bir ölkənin iqtisadi inkişafında kapital qoyuluşu mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyatın investisiyalaşması onun inkişafını şərtləndirən başlıca amildir. Buna görə də bütün sahələrdə iqtisadi islahatlar aparılarkən paralel şəkildə onların kapitallaşması da təmin olunmalıdır. Əgər bu iki proses eyni vaxtda həyata keçirilməsə, iqtisadi inkişafa nail olmaq mümkün deyil.

Ölkəmizdə aparılan uğurlu islahatların əsas məqsədi də iqtisadiyyatın liberallaşdırılması ilə yanaşı, daha çox investisiya cəlb etməkdir. Bu məqsədlə, ilk növbədə, münbit investisiya mühiti üçün hüquqi baza yaradılıb. Xüsusilə xarici investisiyaların qorunması üçün ölkəmizdə bütün lazımi qanunvericilik bazası mövcuddur. Ölkəmizdə kapital qoyuluşu iki əsas mənbədən həyata keçirilir. Xarici və yerli resurslar hesabına iqtisadiyyatın kapitallaşması təmin edilir. Xarici investisiyalar daha çox neft sənayesinə yatırılır.

Prezident İlham Əliyev oktyabrın 15-də ölkənin 9 aylıq iqtisadi göstəricilərinə həsr olunan müşavirədə bu barədə demişdir: "Biz çalışmalıyıq ki, iqtisadi artımımız dövlət xətti ilə aparılan xərclərə bağlı olmasın. Çünki bizim əsas iqtisadi artımımızın mənbəyi dövlət investisiya xərcləridir və açığını desək, qeyri-neft sektoruna xarici sərmayə az qoyulur. İndi rəqəmlər də bunu göstərir ki, bu il də qoyulan investisiyaların yarısı xarici investisiyalardır. Amma onların qoyulduğu sahə qeyri-neft sektoru deyil, neft-qaz əməliyyatlarıdır. Ona görə bizim əsas vəzifəmiz iqtisadi artımımızı birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlamaqdır. İndi biz 1,4 milyard manat güzəştli şərtlərlə kredit vermişik".

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 10146,2 milyon manat vəsait yönəldilib. Həmin dövrdə neft-qaz sektoruna qoyulan kapital azalsa da, qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 8,9 faiz artıb.

Lakin dövlət bu sahədə daha böyük irəliləyişin olmasını qarşıya məqsəd qoyub. Odur ki, istehsal sahələrinə kapital qoyuluşunu stimullaşdırmaq üçün bir sıra tədbirlər görülür. Bunun nəticəsidir ki, hesabat dövründə ümumi sərmayənin 65,4 faizi məhsul istehsalı sahələrinə yönəldilib. Qalan kapitalın 25 faizi xidmət sahələrinin, 9,6 faizi yaşayış yerlərinin tikintisinin payına düşüb.

Ardı 3-cü səh.

## Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir

Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrin XVIII Zirvə Görüşünə uğurla evsahibliyi etməsi və üç il müddətinə BMT-dən sonra sıralarında dünyanın ən çox ölkəsini birləşdirən bu təşkilata sədrliyi öz üzərinə götürməsi ölkəmizin uğuru kimi tarixə düşmüşdür. Yer kürəsində yaşayan insanların yarıdan çoxu Qoşulmama Hərəkatının üzvü olduğu ölkələrdə yaşayır.

Zirvə görüşündə Prezident İlham Əliyevin çıxışında Yer kürəsi əhalisinə mesaj kimi səslənən "Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. 2011-ci ildə əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız "Bakı Prosesi" təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı Prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. "Bakı Prosesi"nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən Mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumu artıq BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma kimi tanınmışdır" fikirləri rəğbətlə qarşılanmışdır.

Bu o deməkdir ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində siyasi xətti Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Ölkəmizdə yaşayan müxtəlif millətlərə və dinlərə mənsub insanların mədəni müxtəlifliklər dövlət səviyyəsində qorunur, onların inkişafı və harmonizasiyasına, azsaylı xalqların milli mədəniyyətinə inteqrasiyasına diqqət göstərilir.

Ardı 6-cı səh.



## Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü ölkəmizin iqtisadi əlaqələrinin genişlənməsi baxımından da əhəmiyyətlidir

Qoşulmama Hərəkatının Bakıda keçirilmiş VIII Zirvə Görüşü ölkəmizin ictimai-siyasi həyatında mühüm tarixi hadisədir. Bu möhtəşəm tədbirdə 160 nümayəndə heyəti, dövlət və hökumət başçıları, parlament sədrləri, xarici işlər nazirləri və BMT Baş katibinin müavini, BMT Baş Assambleyasının prezidenti iştirak edirdilər.

Yüzlərlə yüksək vəzifəli qonağın qarşılanmasının, yerləşdirilməsinin, onların təhlükəsizliyinin və istirahətinin dəqiqliklə və peşəkarlıqla təmin edilməsi Azərbaycanın ən məsuliyyətli beynəlxalq tədbirlərə evsahibliyi etmək bacarığını bir daha nümayiş etdirdi.

Qoşulmama Hərəkatına 2019-2022-ci illərdə sədrlik edəcək Azərbaycanın Prezidenti İlham Əliyev Zirvə görüşündəki nitqində bu hərəkatın təməl prinsiplərinə ölkəmizin sadiq qalacağını bildirdi: "Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür".

Ardı 2-ci səh.

## 645 laçınlı məcburi köçkün ailəsi yeni ili yeni mənzillərdə qarşılayacaq

Ermənistanın işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş soydaşlarımızın problemlərinin hər zaman prioritet olduğunu dəfələrlə bəyan edən Prezident İlham Əliyev bu yöndə dövlət səviyyəsində davamlı zəruri tədbirlər görür.

Ölkə rəhbərinin qayğısının nəticəsidir ki, Laçın camaatının kompakt yaşadığı Taxtakörpü qəsəbəsi son illər sürətlə inkişaf edib. Burada məskunlaşan əhalinin həyat şəraiti, dolanışıq səviyyəsi ildən-ilə yaxşılaşmaqdadır.

Hazırda ərazidə üç yeni qəsəbə inşa olunur. Bu məqsədlə 130 hektar ərazi ayrılmışdır. Mənzillərin çoxu iki və üçotaqlıdır.

Ardı 2-ci səh.



# Malayziyanın Bernama agentliyi Əli Həsənovun Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü barədə məqaləsini yayıb

Malayziyanın Bernama milli xəbər agentliyi Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Qoşulmama Hərəkatının bu günlərdə Bakıda keçirilmiş XVIII Zirvə Görüşünün əhəmiyyəti barədə məqaləsini yayıb.




AZƏRTAC xəbər verir ki, məqalədə Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşünün mühüm siyasi hadisə olduğu, həm Azərbaycan, həm də region üçün xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanır. Yazıda Qoşulmama Hərəkatı haqqında ətraflı məlumat verilir, onun BMT-dən sonra dünyanın ən böyük beynəlxalq qurumu olduğu bildirilir. Qeyd edilir ki, Azərbaycanın 2019-2022-ci illərdə Hərəkata sədrlik etməsi dövlətimizin qlobal proseslərdəki rolunu və nüfuzunu daha da artıracaq, beynəlxalq müstəvidə mövqelərimizi möhkəmləndirəcək, ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verəcək, qeyri-neft sektorunun və ixrac potensialımızın yüksəlişinə geniş imkanlar açacaq.

Qoşulmama Hərəkatının prinsiplərinin Azərbaycanın xarici siyasət prioritetləri ilə tam üst-üstə düşdüyü vurğulanan məqalədə Hərəkatın dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe nümayiş etdirdiyi, beynəlxalq hüququn təməl prinsiplərindən çıxış etdiyi diqqətə çatdırılır. Azərbaycanın Hərəkata üzv olduğu ilk gündən onun suverenliyinin, ərazi bütövlüyünün, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığının birmənalı şəkildə dəstəkləndiyi bildirilir. Vurğulanır ki, qəbul olunmuş bütün sənədlərdə Hərəkat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini məhz həmin prinsiplər əsasında nizamlamağa çağırıb.

Bildirilir ki, Qoşulmama Hərəkatı ilə əlaqədar son illər əldə edilən müsbət nəticələrin əsasında Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2011-ci ildə ölkəmizin Hərəkata üzvlüyü ilə bağlı qəbul etdiyi strateji qərar dayanır. Bu qərar BMT Baş Assambleyasında və digər beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini dəstəkləyən ölkələrin sırasını xeyli genişləndirdi, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar yaratdı. Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının Bakıda keçirilən Zirvə Görüşündə yekdilliklə Azərbaycanın quruma üç il müddətinə sədr seçilməsini dəstəkləməsi də, şübhəsiz ki, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin növbəti uğuru və dünyada ona bəslənən etimadın göstəricisidir.

# Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü ölkəmizin iqtisadi əlaqələrinin genişlənməsi baxımından da əhəmiyyətlidir

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev tədbirdəki çıxışında 2005-ci ildən etibarən Azərbaycanın 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərdiyini diqqətə çatdırdı, müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələrin həyata keçirilməsində iştirak etdiyini bildirdi.

Dövlət başçısı tədbir iştirakçılarına Azərbaycan iqtisadiyyatına 270 milyard dollardan artıq sərmayənin yatırılması, yoxsulluğun 5 faizədək enməsi, ciddi sosial layihələrin reallaşdırılması, xəstəxanaların, məktəblərin tikilməsi barədə məlumat verdi, iqtisadi uğurların və aparılan islahatların beynəlxalq reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirildiyini və Azərbaycanın kosmik ölkəyə çevrildiyini, əhalinin 80 faizinin internet istifadəçisi olduğunu diqqətə çatdırdı.

Tarixən Azərbaycan təbii sərvətlərlə zəngin diyar kimi fatehlərin hücumlarına məruz qalmış, əsrlər boyu ağır və əzablı yol keçmişdir. Müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə Azərbaycanda maraqlarını təmin etməyə çalışan böyük gücləri Ulu Öndər tərəfdaşa çevirdi, Prezident İlham Əliyev ölkəni savaşa sürükləmək istəyən hərb yollarını məharətlə sülh və əməkdaşlıq körpüləri ilə əvəzlədi. Dövlət başçısı bu məqamı çıxışında belə açıqladı: "Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir".

Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına üzv ölkələrin prezidentləri ilə görüşlərində Zirvə görüşündə toxunduğu məsələlərin siyasi və iqtisadi rakurslardan şərh və təhlil edilməsi vacibdir. Hamıya yaxşı bəllidir ki, müasir dünyada zəif ölkələr üçün ciddi təhlükələr yaranmışdır. Şərqdə qədim tarixə və böyük mədəniyyətə malik olan dövlətlər müharibələrin və daxili münaqişələrin təsiri altında, demək olar ki, dünyanın siyasi müstəvisindən təcrid olunmuş və beynəlxalq proseslərə nüfuz etmək gücünü itirmişlər.

Azərbaycan üçün də belə bir senari hazırlanmışdı. Ötən əsrin 90-cı illərinin əvvəllərində bir tərəfdən işğalçı Ermənistan Azərbaycan ərazilərini işğal etməyə başlamış, digər tərəfdən daxili siyasi qüvvələr fəallaşmışdı. Nəticədə erməni işğalı güclənmiş, ölkədə daxili çaxnaşmalar artmış və siyasi böhran yaranmışdı. Əgər Ulu Öndər Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə qayıtmasaydı, gənc müstəqil ölkənin çökməsi, dağılması və parçalanması qısa zaman kəsiyində reallığa çevrilə bilərdi. Onun gəlişi ilə ölkə daxilində sabitlik yarandı, Ermənistan isə iştahını cilovlamaq məcburiyyətində qaldı. Heydər Əliyev kimi zəka sahibinin Qafqazda boy verib bütün əzəməti ilə görünməsi Azərbaycan kimi gənc dövlətin nüfuzunu beynəlxalq aləmdə artırdı. Azərbaycan Cənubi Qafqaz bölgəsində həm iqtisadi nailiyyətlərinə, həm də sülh səylərinə görə bütün dünyanın diqqətini cəlb etdi və onu çökdürməyə yönələn cəhdlər sabun köpüyü kimi partlayıb qeyb oldu. Ölkəmiz isə uğurların və tərəqqinin zirvəsinə yüksələrək Şərqin dan ulduzuna çevrildi.

Bugünkü nailiyyətlərimiz, islahatlarımız Azərbaycanı həm də Qoşulmama Hərəkatına üzv dövlətlər üçün əməkdaşlıq baxımından maraqlı ölkəyə çevirib. Prezident İlham Əliyev iqtisadiyyatda necə şaxələndirməyə üstünlük verirsə, eləcə də bu gün beynəlxalq münasibətlərin şaxələnərək genişlənməsinə və ölkəmizin bütün dünya ilə əməkdaşlıq əlaqələrinin güclənməsinə səy göstərir.

Bu sözləri Kuba Prezidenti Migel Diaz-Kanel Prezident İlham Əliyevlə görüşündə səsləndirmişdir: "Bizim xalqlarımız və ölkələrimiz arasında münasibətlər tarixi və ənənəvi münasibətlərdir. Siyasi dialoq müsbət və sabitdir. Bu münasibətlərin mənbəyi məhz Kubanın Ali Baş Komandanı Fidel Kastro Rus və Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev arasında yaranmış dostluqdur. Biz Bakıya gələn kimi Heydər Əliyevin xatirəsini ehtiramla yad etdik".

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov isə iki ölkə arasında iqtisadi münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirmişdir: "Sevindirici haldır ki, enerji təhlükəsizliyi məsələlərində biz eyni mövqedəyik. Ümumiyyətlə, Sizə təşəkkür edirəm ki, bu gün biz nəqliyyat və tranzit dəhlizlərini nəinki regionda, daha geniş miqyasda birlikdə inkişaf etdiririk. Sevindiricidir ki, bizdə bütün bu məsələləri İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya əlaqələndirir".

Malayziyanın Baş Naziri Mahathir Bin Mohamed də iki ölkə arasında əlaqələrin yaxşı olduğunu, amma onların daha dərindən inkişaf etdirilməsinin mümkünlüyünü önə çəkmişdir: "...Malayziyada Azərbaycan haqqında çox şeyi bilmirik. Bakı haqqında bilirik, lakin Azərbaycan haqqında o qədər də məlumatlı deyilik. Düşünürəm ki, Azərbaycan haqqında tarixən maraqlı şeylər var və bu, bir çox ölkələri buraya cəlb edəcək".

Bütün bunlar bir daha sübut edir ki, Qoşulmama Hərəkatına üzv dövlətlər üçün Bakı ilə geniş iqtisadi əlaqələrin qurulması son dərəcə vacibdir.

**Bahadur İMANQULİYEV,**
**"Azərbaycan"**

# Demokratik inkişaf yolu Azərbaycanın öz seçimidir

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulub.

Dövlət başçısı Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə prosesini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti ölkənin gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Prezidentin bu barədə irəli sürdüyü fikirlər təkcə Azərbaycanın yox, ümumilikdə demokratiya yoluna yenicə qədəm qoymuş bütün müstəqil ölkələrin gələcək inkişafının təməl prinsipi kimi tətbiq edilə bilər: "Ölkədə həm siyasi, həm də iqtisadi sahədə islahatlar cəsarətlə aparılır. Mən tam əminəm ki, siyasi və iqtisadi islahatlar, iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlamalıdır və paralel şəkildə həyata keçirilməlidir. Əks təqdirdə iqtisadi durum yaxşılaşmasa, bizim iqtisadi planlarımız həyata keçməsə, təbii ki, Azərbaycanda tam şəkildə demokratik cəmiyyətin qurulmasından söhbət gedə bilməz".

Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə cənab İlham Əliyev bir daha dünyanın diqqətini Azərbaycana cəlb edərək son 16 ildə əldə edilən nailiyyətlərdən söz açdı.

Azərbaycanın bu gün müstəqil xarici siyasət yeritdiyini deyən Prezident vurğuladı ki, məhz bu siyasət milli maraqlara, ədalətə əsaslanır və ölkəmizə çoxlu dostlar qazandırır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi buna bariz nümunədir. Təhlükəsizlik Şurasına üzvlük müddətində ölkəmiz beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfə verib və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilib. 2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərib. Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir.

Prezident bütün bu uğurların heç də asan əldə edilmədiyini diqqətə çatdırdı. Müstəqilliyin ilk illərində baş vermiş hadisələr acınacaqlı durum yaradıb. Yalnız 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkəmizi daha böyük faciələrdən xilas edib. Azərbaycan demokratik, dayanıqlı inkişaf yoluna qədəm qoyub, ölkədə sabitlik və əmin-amanlıq bərqərar olub.

Bu gün Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri var: "Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur".

Son 16 il ərzində Azərbaycan iqtisadiyyatının sürətli inkişafı da göz önündədir. Ümumi daxili məhsulun üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 270 milyard dollardan artıq investisiya (yarısı xarici sərmayədir) yatırılması bunu təsdiqləyən faktdır.

Hazırda Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə ölkəmiz dünyada 9-cu yerdədir. Yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artıb. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 dollar ekvivalentində aylıq sosial yardım alır.

Ölkədə 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilib və ya təmir edilib. Savadlılıq səviyyəsi 100 faizə yaxındır. Üç yüz mindən çox məcburi köçkün pulsuz ev və mənzillərlə təmin olunub. Məcburi köçkün ailələrinə orta hesabla 180 dollar ekvivalentində aylıq müavinət verilir.

Bütün bunlar cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların uğurlarıdır. Məhz bu uğurlara görə Azərbaycan Prezidentinin adı dünyanın ən islahatçı liderləri sırasında çəkilir. Əldə edilən nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycanın ən islahatçı 20 ölkə sırasında yer alması da bunun real təzahürüdür. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Bu gün Azərbaycan həm də kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən üç peykimiz var. ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı Bakı şəhərinin ən yüksək xal alması da təsdiq edir ki, həqiqətən də, Azərbaycan bu sahədə nailiyyətlər qazanıb. Qeyd edək ki, keçmiş Sovetlər İttifaqı zamanında da - 1973-cü ildə Beynəlxalq Astronavtika Federasiyasının yeganə konqresi Bakıda keçirilib. Ulu Öndər Heydər Əliyevin böyük səyi nəticəsində konqresin Azərbaycan paytaxtında keçirilməsi ilə bağlı müsbət rəy verilib. İndi 50 ildən sonra ölkəmiz daha bir möhtəşəm toplantıya evsahibliyi edəcək.

Cənab İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri sayəsində Azərbaycan enerji təhlükəsizliyini nəinki təmin edib, hətta bu gün bir sıra ölkələrin enerji təchizatçısıdır. Prezidentin də dediyi kimi, Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır: "Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir".

Göründüyü kimi, dövlətin idarə olunmasında, milli maraqların qorunmasında, müstəqil xarici siyasətin yürüdülməsində cənab İlham Əliyevin nümayiş etdirdiyi uzaqgörənlik, prinsipiallıq sayəsində Azərbaycan dünyanın bir çox inkişaf etmiş ölkələri ilə eyni platformada yer alır. Bütün bunlar bir daha təsdiq edir ki, dövlət başçısı sistemli, əhatəli və müasir tələblərə tam cavab verən siyasət həyata keçirməklə Azərbaycanı daha möhtəşəm gələcəyə doğru aparır.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Masallıda seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunmuş seminar keçirilib






Mərkəzi Seçki Komissiyasının (MSK) təşkilatçılığı ilə oktyabrın 29-dan start götürən və seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunan genişmiqyaslı layihə davam edir. AZƏRTAC xəbər verir ki, növbəti seminar noyabrın 2-də Masallı şəhərindəki "ASAN Həyat" kompleksində təşkil olunub.

Qeyd etmək lazımdır ki, ölkəmizi bütün dünyaya tanıtdıran və milli brendimiz olan "ASAN xidmət"in digər mərkəzləri kimi, müasir standartlara cavab verən və ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunan Masallı "ASAN Həyat" kompleksindəki hərtərəfli şərait seminarın yüksək səviyyədə təşkil olunması və keçirilməsinə geniş imkan yaradıb.

Tədbirə 20 seçki dairəsinin - 59 saylı Salyan, 60 saylı Salyan-Neftçala, 61 saylı Neftçala, 66 saylı Biləsuvar, 67 saylı Cəlilabad şəhər, 68 saylı Cəlilabad kənd, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar, 70 saylı Masallı şəhər, 71 saylı Masallı kənd, 72 saylı Yardımlı-Masallı, 73 saylı Lənkəran şəhər, 74 saylı Lənkəran kənd, 75 saylı Lənkəran-Masallı, 76 saylı Lənkəran-Astara, 77 saylı Astara, 78 saylı Lerik, 79 saylı İmişli, 80 saylı İmişli-Beyləqan, 81 saylı Beyləqan və 84 saylı Füzuli seçki dairələri dairə seçki komissiyalarından 60 ekspert qrupu üzvü qatılıb.

Seminarda çıxış edən MSK üzvü İlham Məmmədov bildirib ki, MSK-nın qərarı ilə dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Seçkilərlə bağlı MSK tərəfindən silsilə tədbirlər təşkil olunur. Dairə seçki komissiyalarının ekspert qrupları üçün təşkil edilmiş regional seminar seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunub.

Tədbirin böyük əhəmiyyət kəsb etdiyini vurğulayan İ.Məmmədov müraciətlərə baxılması zamanı qəbul edilən qərarların düzgünlüyü və hüquqiliyinin seçkilərdə müəyyən hərəkətlərin və ya hərəkətsizliyin qarşısını aldığını diqqətə çatdırıb. Bildirilib ki, regional seminarların keçirilməsində məqsəd dairə seçki komissiyalarının ekspert qrupu üzvlərinin seçki prosedurları ilə bağlı məlumatlarının artırılması və praktiki vərdişlərinin gücləndirilməsidir.

Seminarda MSK-nın üzvü Qabil Orucov "Seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri" mövzusunda təqdimatla çıxış edib.

Vətəndaşların seçki hüquqlarının pozulması ilə bağlı şikayətlərə baxılması zamanı qanunvericiliyin tələblərinə ciddi riayət olunmasının vacibliyini vurğulayan Q.Orucov bu zaman Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin, Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması haqqında" Təlimatın, Avropa İnsan Hüquqları Konvensiyasının, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının (presedent hüququ) və Venesiya Komissiyası tərəfindən qəbul edilmiş seçki məsələlərində Əla Təcrübə Kodeksinin müddəalarının əsas olduğunu diqqətə çatdırıb.

Təlim məşğələsində MSK-nın üzvü İlham Məmmədov "Seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması. Ekspert qruplarının fəaliyyətinin əsasları" mövzusunda təqdimatla çıxış edib. Bildirib ki, seçkilərlə əlaqədar müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması vətəndaşların seçki hüququnun daha səmərəli təmin olunmasında çox vacib rol oynayır.

Seminarın praktiki hissəsində kazuslar üzrə müxtəlif şikayət nümunələri nəzərdən keçirilib, seçki komissiyaları tərəfindən həmin şikayətlərə dair müvafiq qərarların qəbul edilməsi məsələlərinə baxılıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# 645 laçınlı məcburi köçkün ailəsi yeni ili yeni mənzillərdə qarşılayacaq





Əvvəli 1-ci səh.

Bu mənzillər əsasən Vağazin, Qarakeçdi və Şeylanlı obalarında məskunlaşan ailələr üçün nəzərdə tutulmuşdur. Yeni inşa olunan hər bir mənzilin sakinləri üçün 12 sot həyətyanı sahə ayrılıb. Sanitar qovşaqla təmin edilən mənzillərdə kombi istilik sistemləri quraşdırılacaq. Böyük inşaat meydanını xatırladan ərazidə biri 108, ikisi 192 şagirdlik olmaqla üç məktəb, inzibati binalar, tibb məntəqəsi, digər infrastruktur obyektləri tikilmişdir. Üç su anbarında tamamlama işləri görülür. 35/10 kilovoltluq elektrik yarımstansiyasının tikintisi davam edir. Qrunt sularının ərazidən kənarlaşdırılması üçün drenajlar, qaz və elektrik xətləri çəkilmiş, ərazini birləşdirən 8,7 kilometrlik avtomobil yolunun yarıdan çoxuna asfalt örtük salınmışdır.




İnşaat meydanında çalışanların əksəriyyəti yerli sakinlərdir. Onlar 645 laçınlı məcburi köçkün ailəsinin yeni ili yeni mənzillərdə qarşılaması üçün əllərindən gələni əsirgəmirlər.

Vağazin obasının sakini Mirzə Kərimov söhbət zamanı dedi ki, hər zaman dövlətin qayğısını hiss edirik. Bizi yaşadan, doğma torpaqlarımıza tezliklə qayıdacağımıza inam verən Prezident İlham Əliyevdir. Göstərilən qayğı və diqqətə görə dövlət başçısına minnətdarlığımız hədsizdir. Ali Baş Komandanımıza inanır və güvənirik. Onun bir əmri ilə yaşımızdan asılı olmayaraq, hamılıqla silaha sarılıb Qarabağ uğrunda döyüşə atılmağa hər an hazırıq.

**Lazım QULİYEV,**
**"Azərbaycan"**

# Naxçıvanda “Ailə təsərrüfatı məhsulları” festivalı

Ailə təsərrüfatları daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatı ilə yanaşı, özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa da mühüm töhfə verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası bu baxımdan mühüm əhəmiyyətə malik olub, ailə təsərrüfatlarının biznes planları tərtib olunub, onlara güzəştli şərtlərlə kreditlər və müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları verilib.





2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları” ili elan olunması isə bu sahəyə marağı daha da artırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görülən işlərin davamı olaraq noyabrın 2-də “Naxçıvanqala” Tarix Memarlıq Muzey Kompleksində növbəti “Ailə təsərrüfatı məhsulları” festivalı keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak edib.

Festivalın açılışından sonra Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov çıxış edərək muxtar respublikada ailə təsərrüfatlarının inkişafı üçün görülən işlərdən danışıb, göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Məlumat verilib ki, festivalda Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarından, eləcə də Naxçıvan şəhərindən, ümumilikdə, 408 ailə təsərrüfatı tərəfindən 556 növdə qablaşdırılmış məhsul çıxarılıb. Naxçıvan qovurması, xaması, qaymağı, müxtəlif növ mürəbbə və şirniyyatları, pendiri, qatığı, alanası, miyanpuru, sucuğu, cəvizi, badamı, qovudu, müxtəlif çeşidli meyvə şirələri, sirkələri, şərabları və araqları, ət və balıq məhsulları, eləcə də turşular, kompotlar, milli mətbəximizə aid çörək çeşidləri və digər məhsullar festival iştirakçılarına təqdim edilirdi.

Muxtar respublikanın ərazisi yabanı tərəvəz və dərman bitkiləri ilə zəngindir. Tarixən həmin sərvətlərdən məişətdə və xalq təbabətində geniş istifadə olunub. Bu gün də kəndlərdə yabanı tərəvəz və dərman bitkilərinin istehsalı sahəsində ixtisaslaşmış ailə təsərrüfatları vardır. Festivalda bu sahə ilə məşğul olan ailə təsərrüfatlarının dərman bitkilərindən hazırladıqları məhsullar da yer alırdı.

Ali Məclisin Sədri festivalda Gənclər Fondunun hazırladığı “Ailəmdən alıcıya” stendinə baxıb. Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev məlumat verib ki, gənclər öz ideyaları əsasında ailə təsərrüfatlarında hazırlanmış məhsulların qablaşdırılmasına və təqdimatına köməklik göstərir, məhsulların satışı həyata keçirilir. Fondun “Mənim ikinci peşəm” layihəsi çərçivəsində isə gənclərin hazırladıqları əl işlərindən ibarət sərgi-satış təşkil olunub və alıcı istəyinə uyğun olaraq məhsullar hədiyyəlik paketlənib. Gənclərin hazırladıqları “Kənddən al” mobil tətbiqetməsinin məqsədi isə muxtar respublikada fəaliyyət göstərən aktiv ailə təsərrüfatçılarının fəaliyyətinə dəstək vermək, məhsulların daha rahat üsulla alıcıya çatdırılması və satıcı-alıcı münasibətlərinin operativləşdirilməsidir. Tətbiqetmə 3 əsas bölmədən ibarətdir. Birinci bölmədə muxtar respublikada fəaliyyət göstərən 73 aktiv ailə təsərrüfatçısının məhsulları, ikinci bölmədə “Özünüməşğulluq” proqramı çərçivəsində ailələrin hazırladıqları məhsullar, üçüncü bölmədə isə istedadlı gənc və qadınların əl işlərindən ibarət məhsullar yerləşdirilib.

Zəngin təbiəti, təmiz havası və suyu, ekoloji saf məhsulları Naxçıvanda meyvəqurutma sahəsində ailə təsərrüfatlarının formalaşmasına əlverişli şərait yaradır. Yerli meyvələrin qurudulması, onlardan müxtəlif mürəbbə və şirələrin hazırlanması ənənəsi bu gün də yaşadılır. Festivalda ailə təsərrüfatları tərəfindən qablaşdırılmış alça, göycə, ərik, tut və digər meyvə quruları, eləcə də meyvə şirələri də keyfiyyəti ilə alıcıları cəlb edirdi.

Naxçıvanda heyvandarlıq və maldarlığın inkişafı ət və süd məhsulları istehsalının geniş yayılmasına səbəb olub. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması ailə təsərrüfatlarında istehsal olunan bu məhsulların həcmini və keyfiyyətini artırıb. Festivalda ailə təsərrüfatlarında istehsal edilən müxtəlif ət və ət məhsulları, qaymaq, xama, qatıq, şor, qurut və digər ənənəvi süd məhsulları keyfiyyəti ilə seçilirdi.

Dövlət proqramlarının qəbul olunması muxtar respublikada meyvəçiliyin və üzümçülüyün inkişafına geniş imkanlar açıb. Bu sahə üzrə ixtisaslaşan ailə təsərrüfatları artıq meyvə ilə yanaşı, tut, alma, armud, göycə, alça, şaftalı araqları, müxtəlif növ şərablar, sirkələr və doşablar da istehsal edir. Festivalda bu məhsullara böyük tələbat var idi.

Bu gün muxtar respublikada istehsal olunan keyfiyyətli məhsullar, eləcə də Naxçıvan mətbəxinin nümunələri ölkəmizdə və dünyada brend məhsul kimi qəbul olunur. Xüsusilə ailə təsərrüfatlarında fəsillərə uyğun mətbəx nümunələrimizin hazırlanaraq qablaşdırılması və satışa çıxarılması böyük maraq doğurur. Festival iştirakçılarına kiçik həcmli taralarda qablaşdırılmış “Naxçıvan qovurması” təqdim edilib.

Naxçıvan şəhər sakini Zakirə İsmayılova minnətdarlıq edərək deyib: “Festivallar Naxçıvan şəhər sakinlərinin böyük razılığı ilə qarşılanır. Muxtar respublikamızda istehsal olunan təbii məhsulları rahat şəkildə ala bilirik. Şəhərimiz böyüyür, inkişaf edir, hər gün daha da abadlaşır. Mənzillərimizdə daimi elektrik, qaz, su və istilik vardır. Görülən işlər, yaradılan şərait insanlar üçündür. Dövlətimizlə fəxr edirik”.

Festivalda iştirak edən Azərbaycan Dövlət Televiziyasının əməkdaşı Günay Muradlı deyib: “Naxçıvan kimi strateji yerdə belə əmin-amanlığa, firavanlığa və inkişafa nail olmaq böyük zəhmət tələb edir. Adət-ənənələrə sadiqlik, dəyərlərimizin yaşadılması, festivalların keçirilməsi və ailə təsərrüfatlarına qayğı nümunə gücündədir. Mən media nümayəndəsi olaraq bütün bunlardan qürur duyuram. Müasir və daim inkişaf edən Naxçıvanın tanıdılması və təbliğində səylərimi əsirgəməyəcəyəm”.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının sahibləri ilə söhbət edib, məhsullardan alıb.

Ailə təsərrüfatı sahiblərindən Şəfəq Əliyeva, “Əmək” ordenli Faiq Babayev, həmçinin Müqabil Zamanov, Bəhruz İsmayılov, Çiçək Bayramova, Xəlil Fərəcov, Leyla Qasımova, Qəzənfər Qurbanov və Tofiq Abutalıbov göstərilən qayğı nəticəsində ailə təsərrüfatlarının xeyli genişləndiyini bildirib, yaradılan şəraitə görə minnətdarlıq ediblər.

Şahbuz rayonunun Ayrınc kəndindən olan ailə təsərrüfatı sahibi, “Tərəqqi” medallı Sürəyyə Quliyeva deyib: “Geniş təsərrüfatım var. Taxılçılıqla məşğulam. Bununla yanaşı, bostan-tərəvəz məhsulları da əkirəm. Meyvə və üzüm bağlarımız var. Göstərilən qayğının nəticəsidir ki, təsərrüfatımız bütün kənd təsərrüfatı texnikaları ilə təmin olunub. Ötən il Ali Məclis Sədrinin qayğısı ilə kombayn almışıq. Öz təsərrüfatımla yanaşı, digər təsərrüfatlarda da biçin aparırıq. Ailəmizin qazancı və dolanışığı təmin olunub. Bütün bunlara görə minnətdarlıq edirik. Söz veririk ki, daha çox çalışacaq, ölkəmizin inkişafına töhfə verəcəyik”.

Festivalda xalq sənətkarlarının, istedadlı qadınların və məhkumların da əl işlərinin sərgi-satışı təşkil olunub.

Dekorativ tətbiqi sənətlə məşğul olan Xuraman Səfərova və ağac üzərində oyma ustası Afət Əhmədova onlara yaradılan şəraitə görə minnətdarlıq edib, xatirə şəkilləri çəkdiriblər.

Festivalda “Araz” Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatlarında yetişdirilən məhsullar da nümayiş olunub, əkinçiliklə məşğul olan ailə təsərrüfatı sahibləri ilə söhbətlər aparılıb.

Naxçıvanda festivalların təşkili həm də turistlərin böyük marağına səbəb olur. Xaricdən və ölkəmizin digər bölgələrindən gələn turistlər festivala böyük maraq göstəriblər.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının inkişafının mühüm əhəmiyyətə malik olduğunu bildirib, göstərilən qayğı nəticəsində ilbəil istehsal olunan məhsulların çeşidinin artdığını qeyd edib, bundan sonra da müvafiq dövlət qurumları tərəfindən ailə təsərrüfatlarına dəstək göstərilməsi barədə tapşırıqlar verib.

Festival noyabrın 3-də də davam edəcək, iştirakçılar arasında “Aktiv ailə təsərrüfatı” nominasiyası üzrə müsabiqə keçiriləcəkdir.

Festivalda Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış edib, iaşə xidməti təşkil olunub.

# Mütəfəkkir şairə xalq məhəbbəti

## Bakı Ali Neft Məktəbində İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Onun irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği isə, əlbəttə, ilk növbədə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir.





“Ədəbi-mədəni fikir tarixində yeri olan, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli Sərəncamına uyğun olaraq, ölkə ərazisində keçirilən tədbirlər silsilə xarakter alıb.

Bakı Ali Neft Məktəbi də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə birgə Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirib.

Tədbiri açan Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirib ki, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi klassik Azərbaycan poeziyasında öz dəstxəti ilə seçilən, anadilli poeziyamızın inkişafında müstəsna xidmətləri olan söz ustadıdır. Rektor onu da qeyd edib ki, Nəsimi yaradıcılığında insanın əzəməti, şəxsiyyətin azadlığı və məhəbbət ideyası mühüm yer tutur: “Onun müxtəlif ideyalarla zəngin bədii irsi özündən sonra gələn Azərbaycan şairlərinin yaradıcılığına və bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına güclü təsir göstərib. Biz çox qürur duyuruq ki, ölkə səviyyəsində geniş miqyasda qeyd olunan “İmadəddin Nəsimi ili” çərçivəsində keçirilən tədbirlərin birini də biz təşkil etdik. Bu gün həm Bakı Ali Neft Məktəbinin, həm də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbə və müəllimləri dahi Nəsimi yaradıcılığından kompozisiya, şeir və bəstələr təqdim edəcəklər”.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova isə rəhbərlik etdiyi ali təhsil müəssisəsində “İmadəddin Nəsimi ili” çərçivəsində həyata keçirilən tədbirlər haqqında məlumat verərək bildirib ki, bu il mütəfəkkir şair İmadəddin Nəsimiyə ithaf olunan “Hüsnü-cəmal, əqli kamal” adlı bədii qiraət müsabiqəsi keçirilib. Eyni zamanda şairin qəzəlləri əsasında muğamlardan ibarət kompozisiya hazırlanıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, akademik İsa Həbibbəyli çıxışında xüsusi qeyd edib ki, dünyada Nəsimidən başqa insanı ilahi varlıq səviyyəsinə yüksəldən ikinci sənətkar yoxdur.

Tədbirin bədii hissəsində Bakı Ali Neft Məktəbi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbə və müəllimlərinin ifasında “Məndə sığar iki cahan, mən bu cahana sığmazam”, “Könlüm”, “Neylərəm”, “Eylədi”, “Etməgil”, “Hardasan?”, “Canan, mənim sevdiyimi can bilir ancaq”, “Yanaram”, “Ayrılır”, “Ey Məsihadəm, niyə can vermədin cansızlara?!”, “İnsan dedilər” qəzəlləri, Xalq artisti, bəstəkar Tofiq Quliyevin “Nəsimi” filminə bəstələdiyi “Söylədi yox-yox” mahnısı, “Qafil, oyan”, “Simayi-Şəms” və eləcə də Nəsiminin qəzəllərindən ibarət kompozisiyalar, “Məndə sığar iki cahan” şur təsnifi tamaşaçılara təqdim olunub.

Tədbir Sami Yusifin “Sığmazam” kompozisiyasının videorekviyemi ilə yekunlaşıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Güvənc yerimiz

Tale elə gətirib ki, ali təhsili Xankəndi şəhərində almışam. O vaxtdan illər keçsə də, tələbəlik dövründə elə hadisələrlə qarşılaşmışam ki, yaddaşıma əbədi həkk olunub. Onlardan biri Bakı-Xankəndi dəmiryol xəttinin açılışı ilə bağlıdır. Həmin gün birinci vaqonun qapıları ağzında tədbir iştirakçılarını salamlayan Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevi görəndə köksümüz qürurla doldu. Ulu Öndərin DQMV sakinləri qarşısında çıxışı hamıda xoş ovqat yaratdı...



Ermənistanın baş naziri Nikol Paşinyanın avqust ayında Xankəndidə “Dağlıq Qarabağ Ermənistandır, nöqtə” bəyanatı, qeyri-konstruktiv çıxışları təkcə Qarabağda deyil, Ermənistanın özündə də birmənalı qarşılanmadı. Ona görə ki, Ermənistan hakimiyyətinin yalan vədlərindən, onların anlaşılmayan qərar və göstərişlərindən erməni xalqı da cana gəlib. Xankəndidə və onun yaxın ərazilərində “yaşayış var” anlamı yaratmaq üçün gətirilən muzdlu ermənilər, orada yaşamağa göndərilən şəxslər öz millətinə və onun iyrənc rejiminə qarşı dururlar. Eyni zamanda qondarma Dağlıq Qarabağ rəhbərliyi yaxşı başa düşür ki, onların fəaliyyətinin heç bir hüquqi əsası yoxdur. Ermənistanın özündə bunu anlayan və dilinə gətirən insanlar hakimiyyət tərəfindən sıxışdırılır. Baş nazir Nikol Paşinyan bunlardan narahatdır.

Xalqımız hər zaman Prezident İlham Əliyevə güvənir. Bu güvənc ölkəmizdə yaranmış sabitlikdə, onun günbəgün artan iqtisadi yüksəlişində, əhalinin rifah halında, elm, təhsil, mədəniyyət, səhiyyə, hərbi və iqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, cənab İlham Əliyevin xarici siyasətində də özünü göstərir. Elə götürək Soçi səfərində Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə görüşünü və dünyanın 40 nüfuzlu ölkəsinin “Valday” Beynəlxalq Diskussiya Klubunda maraqlı və parlaq çıxışını. Müzakirədə beynəlxalq təhlükəsizlik, dünya iqtisadiyyatı, regional sabitlik, iqlim dəyişiklikləri və digər aktual məsələlər dururdu. Sessiyada dövlət başçısı “Qarabağ Azərbaycandır və nida işarəsi” deməklə “Qarabağ Ermənistandır” deyən Nikol Paşinyanın nöqtəsinin üzərinə xətt çəkdi.

Bütün Avropa strukturları - Avropa Şurası, ATƏT, Avropa Birliyi, NATO və digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ölkəmizin bütün siyasətinin başında sabitlik, sülh, əmin-amanlıq, dostluq durduğunu bilir. Ermənistan isə işğalçı dövlət olmaqla, öz qarayaxmalarından əl çəkmir. Onların Lüksemburqda tədbir zamanı qondarma “DQR”-in bayrağını qaldırması özünüifşadan başqa bir şey deyildi. Ona görə də onların Lüksemburq mitinqi nifrətlə qarşılandı.

İkinci bir gülünc vəziyyət Los-Ancelesdə Paşinyanın rəhbərliyi ilə erməni diasporunun toplantısı oldu. Toplantı zamanı səmada Qarabağın Azərbaycana məxsus olmasını əks etdirən yazı və şüarlarla bəzədilmiş təyyarənin uçuş etməsi erməniləri şoka salsa da, Amerika ictimaiyyəti üçün əsl həqiqəti aydınlaşdırdı.

Haqq nazilər, üzülməz. Ümid ölmür. Biz haqqa sığınırıq, ümidlərimizin reallaşacağı günü səbirsizliklə gözləyirik. Çünki bizim Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla həyata keçirən İlham Əliyev kimi qətiyyətli Prezidentimiz var. Güvənc yerimiz, Azərbaycan reallıqlarını dünyaya çatdıran, hər bir vətəndaşın sonsuz sevgi və rəğbətini qazanmış İlham Əliyev!

***Səxavət TAĞLAR,***
***Əməkdar müəllim,***
***İmişli rayonu***

# Əsassız bəyanata tutarlı cavab

Bir müddət əvvəl Ermənistanın baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri zamanı səsləndirdiyi əsassız bəyanatlar bu işğalçı dövlətin hələ də beynəlxalq hüquqa məhəl qoymadığını, BMT kimi nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrini qəbul etmədiyini bir daha göstərdi.

Lakin Azərbaycan Prezidenti həmişə olduğu kimi, bu dəfə də ona tutarlı cavab verdi. Prezident İlham Əliyev Soçidə keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi “Qarabağ Azərbaycandır və nida işarəsi” ifadəsi və MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən Zirvə görüşündəki çıxışı ilə Dağlıq Qarabağ məsələsinə öz qətiyyətli mövqeyini bir daha nümayiş etdirdi. Bu mövqe hər bir azərbaycanlının mövqeyidir. Dövlət başçısının mötəbər tribunalardan düşmənin işğalçılıq siyasətini ifşa edən cəsarətli çıxışları hər bir azərbaycanlıda qürur hissi yaradır.

Çalışdığım təhsil ocağının müəllim və tələbələri də bu tutarlı cavabdan fəxarət duyduqlarını bildirdilər. Dedilər ki, Prezident İlham Əliyevin erməniləri ifşa edən fikirləri hər bir vətəndaş üçün əsl örnək və nümunədir. Saxta iddialara, təxribat xarakterli bəyanatlara həmişə belə kəskin cavab verib onları susdurmaq lazımdır. Dövlət başçısının çıxışı torpaqlarımızın işğaldan azad ediləcəyi günün uzaqda olmadığına həm də bir mesaj idi. Tələbələrimizə dedik ki, hamımız ölkə rəhbərinin müdrik xarici siyasətindən nümunə götürməli, bir nəfər kimi səfərbər olmalı, informasiya müharibəsi gedən bütün platformalarda fəaliyyətimizi artırmalıyıq. Diqqətəlayiq haldır ki, bu fəaliyyət getdikcə genişlənir.

Xalqın Azərbaycan Prezidentini dəstəklədiyi, yeritdiyi siyasəti bəyəndiyi xarici ölkələrdə də yaxşı məlumdur. Buna Qazaxıstan Respublikasının birinci Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayevin cənab İlham Əliyevlə oktyabrın 14-də Bakıda keçirdiyi görüşdə səsləndirdiyi bir fikri də misal göstərmək olar. N.Nazarbayev dedi ki, sizin Qarabağla, Ermənistanla münasibətlərlə bağlı çətin məsələləriniz az olmayıb. Azərbaycanda hər şey öz axarında gedir. Başlıcası budur ki, xalq sizin kursu dəstəkləyir. Prezident və xalq yekdil olduqda xalqın öhdəsindən gələ bilməyəcəyi güc yoxdur.

***Nübar BAYRAMOVA,***
***ADPU-nun Quba filialının Pedaqoji fakültəsinin dekan müavini***

# Hədəf qeyri-neft sektoruna daha çox xarici investisiya cəlb etməkdir

***Əvvəli 1-ci səh.***

Sahibkarlığın inkişafına verilən dövlət dəstəyi nəticəsiz qalmır. Ölkədə sahibkarlıq sinfinin formalaşmasının nəticəsidir ki, hesabat dövründə yatırılan ümumi sərmayənin 52 faizi qeyri-dövlət, 48 faizi isə dövlət sektorunun payına düşüb. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri isə ümumi sərmayənin 71,5 faizini təşkil edir. Əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 5831,2, bank kreditləri 739,2, büdcə vəsaitləri 2729,8, büdcədənkənar fondların vəsaitləri 152, əhalinin vəsaitləri 667,8 milyon manat və s. vəsaitlər 26,2 milyon manat olub.

Hesabat dövründə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 2890,3 milyon manat sərmayə qoyulub. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən kapitalın 81,2 faizi İngiltərə, Türkiyə, İsveçrə, ABŞ, Yaponiya, Malayziya, Rusiya, İran və Norveç sərmayədarlarına məxsusdur.

Mərkəzi Bankın təqdim etdiyi məlumata görə, bu il sentyabr ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 13865,5 milyon manat təşkil edib. Ümumi kredit portfelinin 11272,1 milyon manatı uzunmüddətli kreditlərin payına düşür. Kreditlərin 97,6 faizi banklar, 2,4 faizi bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib.

Kapital qoyuluşu sahəsində cari ilin 9 ayında ölkənin paytaxt və bölgələrində bir sıra istehsal, xidmət təyinatlı və inzibati binalar tikilmişdir. Həmin dövrdə Bakı şəhərində Nəqliyyat Agentliyinin “Koroğlu” nəqliyyat mübadilə mərkəzi, şpris istehsalı zavodu, Pirallahı Rayon İcra Hakimiyyətinin inzibati binası, Pirallahı Rayon Gənclər Mərkəzi, DOST Agentliyinin ilk DOST Mərkəzinin inzibati binası, 960 yerlik ümumtəhsil məktəb binası, 140 yerlik məktəbəqədər təhsil müəssisəsi, 200 çarpayılıq xəstəxana və Mərdəkan-Qala avtomobil yolu tikilərək istifadəyə verilmişdir. Sumqayıtda “SOCAR karbamid”, Polietilen zavodları, Beyləqan rayonunda Kəbirli-Eyvazlılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolu və Mingəçevir-Stansiya, Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolları, Naxçıvan Muxtar Respublikasında 1530 şagirdlik 3 ümumtəhsil məktəb binası, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, bir növbədə gəlişlərin sayı 50 nəfər olan 3 ambulatoriya-poliklinika müəssisəsi və s. obyektlər tikilərək təhvil verilib.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Hərbi hissədə növbəti seminar keçirilib

Müdafiə Nazirliyi ilə Dövlət Təhlükəsizliyi Xidmətinin birgə fəaliyyət planına uyğun olaraq hərbi hissələrdən birində növbəti seminar keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, “Xarici xüsusi xidmət orqanlarının pozuculuq fəaliyyəti” və “Dini ekstremizmə qarşı mübarizə və informasiya təhlükəsizliyi” mövzularında keçirilən seminar hərbi qulluqçular tərəfindən maraqla qarşılanıb.

Seminarda çıxış edənlər bu tip seminarların şəxsi heyətin maarifləndirilməsi məqsədilə keçirildiyini hərbi qulluqçuların diqqətinə çatdırıb.

Sonda “Heç vaxt gec deyil” sənədli filmi nümayiş etdirilib.





# İÇƏRİ ŞƏHƏR





● Bakı əsilzadələri

# Xanəndə, yoxsa neft milyonçusu...

**XIX əsrin sonları, XX əsrin əvvəllərində "neft və milyonlar səltənəti" olan Bakı "qaynar qazan"a bənzəyirdi. Şəhər sürətlə inkişaf edirdi. Ətraf yerlərdən buraya pənah gətirənlərin sayı çoxalır, hətta şəhərin sərvətindən yararlanmaq istəyən xaricilər də kapitallarını artırmaq üçün Bakıya axın edirdilər. Bu şəhərdə kimlər bir gecənin içində milyonlara sahib olmayıb? Bakının "qara qızıl"ı Nobel və Rotşild ailələri ilə bərabər şəhər sənayeçilərinə də görünməmiş sərvətlər qazandırırdı. Mədəni mühit də məhz bu zamanlardan dəyişməyə başlamışdı. Bakı nefti dünyaya hökmranlıq edirdi.**



Bu illərdə mədəniyyət və incəsənət sahəsində güclü tərəqqi özünü göstərirdi. İfaçılıq sənətinin inkişafında Bakı heç də Şuşa, Şamaxı, Gəncənin musiqi məclislərindən geridə qalmırdı. Hələ deyərdim ki, Azərbaycanın başqa yerlərindən gələn ifaçıların tanınmasında Bakının xüsusi rolu var idi. Bütün tanınmış ifaçılar yaşadığı yerdən uzaqlaşanda ilk dayanacaq yerləri Bakı və onun musiqi məclisləri olurdu. Bu məclislərə içərişəhərli Məşədi Məlik Ağası oğlu Mansurov rəhbərlik edirdi. Onun evi bir növ konservatoriyanı xatırladırdı. Təsadüfi deyil ki, Mirzə Məlikin təşkil etdiyi məclislərdə Mirzə Sadıq (Sadıqcan), Hacı Hüsü, Məşədi İsi, Mirzə Məhəmmədhəsən, Əbdülbaği (Bülbülcan), Seyid Şuşinski, İslam Abdullayev, Mirzə Səttar kimi böyük sənətkarlar iştirak etmişlər. Musiqişünas-alim, görkəmli tədqiqatçı Firudin Şuşinski yazırdı: "Məşədi Məlik qonaqpərvər bir şəxs olduğundan Qarabağdan, Şirvandan, eləcə də İrandan Bakıya gələn musiqiçilər aylarla onun hər cür şəraiti olan yaraşıqlı otaqlarında dincəlirdi. Azərbaycanın Hacı Hüsü, Bülbülcan, Məşədi Zeynal, Sadıqcan kimi məşhur musiqiçiləri Məşədi Məlikin ən yaxın dostları idi".

❖ ❖ ❖

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın görkəmli musiqi simalarından biri də mədəniyyət tariximizdə əbədi iz qoymuş xanəndə Seyid Mir Tağı Mirbabayevdir. Bakı musiqiçilərinin bütöv bir nəslini yetişdirmiş, Məşədi Məlikin təşkil etdiyi "Musiqi salonu"nun üzvlərindən olan Seyid Mir Tağı Mirbabayev 1867-ci ildə Bakıda mərsiyəxan ailəsində anadan olub. Atası qatı dindar idi. Seyidin gözəl səsi olduğundan o da atası və qardaşı kimi mərsiyəxanlıqla məşğul olurdu. O, bir müddət sonra mərsiyəxanlıqdan uzaqlaşıb xalq məclislərində iştirak etməyə başlayır. Artıq Seyid Mirbabayev keçən əsrin əvvəllərində Bakıda nümayiş olunan teatr tamaşalarının fasilələrində bir çox tanınmış müğənnilər kimi çıxış edirdi. Təsadüfi deyil ki, 1902-ci ilin yanvarında "Kaspi" qəzeti yazırdı: "Yanvarın 11-də, cümə günü Hacı Zeynalabdin Tağıyevin teatrında məşhur Qarabağ aşığı Nəcəfqulunun və xanəndələrdən Qaryağdıoğlu Cabbarın, bakılı Seyidin, şəkili Ələsgərin və Keçəçioğlu Məhəmmədin iştirakı ilə Bakıda birinci Şərq konserti olacaqdır".

Seyid tez bir zamanda bütün Qafqazda, Orta və Yaxın Şərqdə muğam ifaçısı kimi məşhurlaşır. Şəhərin milyonçuları xanəndəni bir-birlərinin bəhsinə şənliklərinə dəvət edirdilər. Xüsusilə də xanəndənin "Pate" (Fransa), həmçinin Varşavanın "Konsert-Rekord" şirkətlərində, o zamanlar Tiflis və Bakıda fəaliyyət göstərən filialları tərəfindən bir neçə mahnısı vala köçürüləndən sonra onu sevənlərin sayı daha da artır, məclislərində xanəndənin iştirakı üçün cəhdlər də olurdu. Bakı milyonçusu Şıx Bala Şıx Sala oğlu Seyid Mirbabayevi məşhur tarzən salyanlı Şirin Axundovla birlikdə oğlunun toy məclisinə dəvət edir. Toyun adəti üzrə xanəndə bəy tərifi yerində bəyin dayısından xələt almaq üçün üzünü ona tutub deyir:

*...Gözəl olur mayislərin mayisi,*
*Gəlsin xələt versin bəyin dayısı...*

O da öz növbəsində pul əvəzinə Sabunçuda həyət sahəsində qazdırdığı fontanın xərcini üzərinə götürməklə xanəndəyə bağışladığını bəyan edir. Hadisədən bir müddət sonra gözlənilmədən həmin həyətdə olan neft quyusu bir neçə yerdən fontan vurur...

❖ ❖ ❖

Bu yerdə bir haşiyəyə çıxmaq istərdik: xanəndə haqqında yazanlar, onun barəsində çıxış edənlər heç bir tutarlı mənbəyə müraciət etmədən bildirirlər ki, bu hadisədən sonra guya Seyid Mirbabayev milyonçu olmuşdu.

Düzdür, həmin hadisədən sonra S.Mirbabayev böyük var-dövlət sahibi olsa da, əslində o, 1906-cı ildən Bakıda sahibkarlar arasında imkanlı şəxs kimi tanınırdı. Onun da mülkləri, daşınmaz əmlakı var idi, onları ayrı-ayrı imkanlı şəxslərə icarəyə verirdi.

Qeyd edək ki, 1905-ci ildə dul qalmış sahibkar arvadı Yekaterina Mixaylovna Nadirova adlı qadın Tiflisdə yaşayan I qildiya taciri, nəslən Fəxri vətəndaş sayılan Maksimilian Mavrikeviç Şumaxerə Bakıda yerləşən neft torpaqlarını icarəyə verir. Bu barədə məlumatlar Dövlət Tarix Arxivinin sənədlərində öz əksini tapıb. Orada yazılır: "Mən, Yekaterina Mixaylovna Nadirovanın inanılmış şəxsi Bakının Balaxanı bağlarında yerləşən neft sahəsini Maksimilian Mavrikeviç Şumaxerə icarəyə verdim".

O, neftdən gələn gəlirin 4/1 hissəsini hər ayın 15-nə qədər dövlətə ödəməli idi. Görünür icarə haqqını vaxtlı-vaxtında ödəyə bilməyəcəyini düşünən M.M.Şumaxer 1906-cı ildə Mir Tağı Mirbabayevə həmin neft torpaqlarını icarəyə verir.

Arxiv sənədlərindən o da məlum olur ki, S.Mirbabayev "Bakı rus neft cəmiyyəti"nə, milyonçu (sənədlərdə I qildiya tacir) Musa Nağıyevə və başqa şəxslərə Sahil kənarındakı mülkündə otaqlarını kirayəyə vermişdi. Seyid yalnız mülkün birinci mərtəbəsini icarəyə verməklə il ərzində təmiz 32.756 rubl qazanc əldə etmişdi.

S.Mirbabayev yalnız ayrı-ayrı sahibkarlarla iş birliyi yaratmır, o həmçinin dövlət orqanları ilə də əlaqələr qururdu. Bəzən onlara bu və ya digər məsələlər barədə müraciət edir, kreditlə pul götürür və öhdəliyi vaxtında yerinə yetirəcəyinə yazılı surətdə zəmanət verirdi.

Bağışlanmış neft quyusunun hesabına daha da zənginləşən, var-dövlətə sahib olan Seyid şəhərdə mülk almaq üçün el ağsaqqalı sayılan Hacı Zeynalabdin Tağıyevin yanına məsləhətə gedir. Onun sənətinin vurğunu olan Hacı anasının və özünün yaşadığı mülkündən başqa bütün evlərini ona peşkəş verməyə hazır olduğunu bildirir. Seyid Hacının bu iltifatını yüksək qiymətləndirir və o, başqa bir mülk almaq istədiyini söyləyir.

Hacı Zeynalabdin Tağıyev bir qədər özlüyündə götür-qoy etdikdən sonra deyir:

- Seyid, gəl sənə məktub verim, get Tiflisə. Müflisləşmiş erməni milyonçusu Aramyants dəniz kənarındakı mülkünü satmaq istəyir. Bildiyimə görə elə də baha vermir. Çox qəşəng memarlıq üslubunda tikilib. Mənim mülkümdən heç də geri qalmaz. Evim hazır olanadək mən də o mülkdə yaşamışam. (Neçə illər sonra Seyid elə həmin mülkdən hər cür şəraiti olan səkkiz otağı Musa Nağıyevə icarəyə vermişdi).

- Nə deyirəm, Hacı, məsləhət gördüyün kimi edərəm, - deyə cavab verir.

Hacının Seyid Mirbabayevin almaq üçün məsləhət gördüyü mülk indiki Azərbaycan Dövlət Neft Şirkəti meydanında yerləşən binadır. O, Bakı şəhərində qədim tikililər arasında öz əzəməti və gözəlliyi ilə xüsusi diqqət çəkir. Qeyd edək ki, binanın layihəsi 1893-cü il may ayının 25-də təsdiq olunub və həmin ayın sonlarında Sadovaya küçəsində və Aleksandrovskaya Naberejnayanın kəsişdiyi yerdə tikintisinə başlanılıb. Mənbələrdə göstərilir ki, Fransa intibah üslubunda inşa edilən fasad sahilin qərb tərəfinə baxırdı. Üzü Azneft meydanına tərəf tikilən və rahat mənzillərdən ibarət olan bina şəhərin layihələndirmə strukturunda çox mühüm əhəmiyyət daşıyırdı. Binanın daxili dəhliz boyu yerləşdirilmiş otaqlarında şüşəbəndlər həyətə açılırdı. Bu binanın alqı-satqısından məlum olur ki, onun sahibi Mixail Osipoviç Aramyants mülkünün satılmasını vəkili Avetis Sergeyeviç Cknavoryantsa həvalə edib. Avetis Sergeyeviç Cknavoryantsa Mixail Osipoviç Aramyantsın tam mülkiyyətini Bakı taciri Mir Tağı Mirbabayevə satır.

Seyidin başqa mülklərindən biri də sovet dövründə "Səhiyyə işçiləri klubu" adlanan bina idi. 1865-1867-ci illərdə tikildiyi ehtimal olunur. Neftçilər prospektində "Qubernator evi" kimi tanınan binanın yeni sahibi Seyid Mirbabayev Bakı şəhəri qubernatorunun iqamətgahı olmadığından ona icarəyə verir...

❖ ❖ ❖

Seyid vaxtilə Hacının ona verdiyi məsləhəti qəbul edib Qori Müəllimlər Seminariyasının hamiliyini üzərinə götürür. Qeyd edək ki, Qori Müəllimlər Seminariyasının nizamnaməsində təlim-tərbiyə ilə bağlı, həm də seminariyanı himayə edən Fəxri Nümayəndəsi haqqında xüsusi maddələr öz əksini tapmışdır. Seyidin üzərinə götürdüyü missiya Tiflis şəhərində sevinclə qarşılanır. Tiflis qəzetləri Bakı neft sənayesi sahibinin bu addımını yüksək qiymətləndirərək yazırdı: "Varşavada səsi qrammofon valına yazılan ilk azərbaycanlı xanəndələrdən biri, təsadüf nəticəsində neft milyonçusu olan Seyid Mirbabayev elmin tərəqqisi naminə Qori Müəllimlər Seminariyasına yüksək məbləğdə ianə verdi..." O, bu elanı məqbul saysa da, "xanəndə" sözü Seyidi dilxor edir. Artıq onun adının əvvəlinə "xanəndə" sözü artırılmasını qəbul edə bilmir. Vaxtilə yazdırdığı səs yazılarını təcili olaraq ayrı-ayrı şəxslərdən alıb məhv etməyi qərara alır...

S.Mirbabayevin Zaqafqaziya Müəllimlər Seminariyasına himayəçi olmaq barədə müraciətinə cavab olaraq Xalq Təhsil Nazirliyinin əmri seminariyanın direktoru Fyodor Antonoviç Smirnovun məktubunda göstərilir: "22 May 1915-ci il tarixdən etibarən Mir Tağı Mirbabayev Fəxri Himayəçi olaraq təsdiq edilmişdir".

S.Mirbabayev nəinki müsəlman uşaqlarına, hətta başqa millətdən olan tələbələrə də xüsusi qayğı ilə yanaşır, bayramlarda onların hər birinə maddi kömək göstərirdi.

Bundan sonra Seyid Mirbabayev üçün daha geniş imkanlar açılır. Artıq o, hökumət nümayəndələri ilə sıx əlaqələr yaradır. Tez bir zamanda neft ticarəti sahəsində məşhurlaşmağa başlayır. 1912-ci ildə o, neftlə zəngin 3 böyük sahə alır və onun hasilatına başlayır. Artıq Seyidin kontoru 18 buruqdan ildə 150000 barel neft hasil edirdi.

❖ ❖ ❖

Keçən əsrdə hökumət devrilləndən sonra başqa neft sahibləri kimi, Seyid Mirbabayev də vəzində yüngül, qiymətdə ağır nəyi vardısa götürüb, Bakını tərk edir. O, bir müddət Parisdə yaşayır. Ləl-cavahirat həvəskarı olan Seyid özü ilə gətirdiyi qiymətli qaşdaşlarla güzəranını keçirirdi. Bir müddət sonra gətirdiyi sərvəti əlindən çıxan Seyid bir daşın üstündə oturub keçmiş günlərini şirin bir xatirə kimi yadına salır. Bu xatirələr işığında onu ən çox düşündürən və peşmançılığını bildirən, vaxtilə el ağsaqqalı, müdrik insan olan Hacının ona etdiyi vəsiyyətə xilaf çıxması idi: "Bala, səsindən muğayat ol! Bu səs hər bir insana müyəssər olmayan Allah vergisidir. Sənə Ulu Tanrı tərəfindən bəxş edilən peyğəmbərimiz Davudun səsidir. Bu səsi heç bir var-dövlətlə ala bilmədiyin kimi, heç bir var-dövlətə də uyub onu əldən vermə! Onu qorumağa çalış!"

Seyid Hacının peyğəmbərcəsinə dediyi sözləri xatırladıqca vicdan əzabı çəkirdi. Tutduğu işə peşman olsa da keçmişi heç cür geriyə qaytara bilməyəcəyi ona aydın idi. Lakin hansı səbəbdən bu cür addım atdığı ona aydın deyildi. Ümid yeri hər yerdən üzülmüş Seyid Parisdə Teymur bəy Aşurbəyova rast gəlir. Mirbabayevin ağır vəziyyətini görən Teymur bəy onu Tehrana aparır. Seyid Mirbabayev burada bakılıların çayxanasında xanəndəlik edir və 1953-cü ildə 86 yaşında dünyasını dəyişir.

❖ ❖ ❖

**HAŞİYƏ:** Uzun zaman Seyid Mirbabayev haqqında həqiqətdən uzaq olan bir əhvalat xanəndə haqqında yazılarda eyniliklə təkrarlanır. Bu əhvalat Kərim Kərimovun Seyidin həyatına həsr etdiyi "Xanəndənin taleyi" librettosu əsasında bəstəkar Cahangir Cahangirov tərəfindən yazılmış opera olmuşdur.

"Xanəndənin taleyi" operası inqilabdan əvvəl Azərbaycanda yaşamış məşhur xanəndə Seyid Mirbabayevin acı taleyindən bəhs edir. Var-dövlət içində həyat sürmək xatirinə qürbət ölkəyə gətirdiyi ləl-cavahiratını göyə sovurub yoxsullaşan xanəndənin yalnız səsi yazılmış yeganə sınıq qrammofon valı qalmışdı. Operada xanəndənin bu yadigarı onun məhv olmuş həyatının rəmzi kimi anılır. Lakin ondan sonra Seyid Mirbabayev haqqında yazılan məqalə müəllifləri fikri başqa səmtə yönəldir və həmin hadisəni reallıq kimi təqdim edirlər.

Qeyd edilir ki, Parisdə yaşayarkən var-dövləti əlindən çıxan Seyid səfil vəziyyətdə küçələri gəzirmiş. Bu zaman gözü "Pate" firmasının bir elanına sataşır. Şirkət Azərbaycan musiqiçilərinin inqilaba qədər olan səs yazılarını yüksək qiymətə aldığını bildirir. Seyid bir anlıq özünü itirir. Düşünmədən evə gəlir. Göz bəbəyi kimi qoruduğu yeganə valı götürüb şirkətə qaçır. Şirkətin sahibi ilə razılığa gələndən sonra gələcəkdə yenidən varlanacağı ümidi ilə sinəsində qoruyub saxladığı valı şirkətin işçisinə vermək istəyəndə həyəcandan əli titrəyir və valı salıb sındırır. Bu zaman elə bil Seyidin gözləri hədəqəsindən çıxır. Qəlbində dəhşətli inilti qopur. Nə edəcəyini bilməyir. Heç bir söz deməyib əlləri ilə başını qucaqlayıb yerə çökür. Bu böyük xanəndənin sınmış son ümidi idi.

Həmin məqalələrdə göstərilir ki, Seyid Mirbabayev milyonçu olarkən səsi yazılmış valları bir neçə qat baha qiymətə alıb məhv edirmiş. Bununla da Seyidin dövrümüzə heç bir səs yazısı gəlib çıxmadığı iddia edilir.

Təxminən belə şəkildə biz Seyid Mirbabayev haqqında müxtəlif şəxslərin mətbuatda yazılarına rast gəlirik.

Lakin qeyd edək ki, həmin yazıların heç birinin reallıqla əlaqəsi yoxdur. Xatırladaq ki, Seyid Mirbabayevin səsi keçən əsrin əvvəllərində bir şirkət tərəfindən yox, dünyanın bir çox şirkətləri tərəfindən vallara köçürülüb. Hal-hazırda Seyidin ifa etdiyi on ədəd qrammofon valından ibarət olan "Mahur" muğamından hissə, "Mahur" təsnifi, "Muxalif" təsnifi, "Leyli və Məcnun" təsnifi, "Mübərriğə", muğamdan hissə, "Mübərriğə" (fars dilində), "Küçələrə su səpmişəm", "Şüştər", "Ay bəri bax, bəri bax" Azərbaycan xalq mahnısı, "Sarənc", "Aşiran", "Əraq", "Hicaz", "Simayi-şəms" muğamları, keçən əsirdən bugünümüzə gəlmiş səs yazıları Respublika Dövlət Səs Yazıları Arxivində qiymətli bir abidə kimi saxlanılır.

*Aslan KƏNAN*

● Ədəbi xəzinə

# Əzim Əzimzadənin prototipləri İçəri şəhərdə

## Bu istirahət məkanını "Gülüş parkı" da adlandırırlar





**Hətta onun özünü gördükdə belə müasirləri gülürmüş. Sanki çəkdiyi karikaturaların xarakter cizgiləri nəinki yaradıcılığına, damarlarında axan qanı ilə cisminə də yayılmışdı, simasında istehza, təbəssüm doğuracaq ifadələr sayrışdığını da söyləyənlər vardı. Məşhur "Ulduz" filmində daha çox yaddaqalan obraz olan Məhəmmədə də oxşadırdılar.**



Söhbət Azərbaycan karikatura sənətinin banisi Əzim Əzimzadədən gedir. Maraqlıdır ki, bu böyük sənətkarın rəssamlıq təhsili olmayıb. O, bu sənəti özü öyrənib. Lakin onun yaradıcılıq irsi dəzgah vərəqələri, kitab illüstrasiyaları, satirik jurnal və qəzet rəsmləri, geyim və dekorasiya eskizləri, o cümlədən siyasi karikaturalardan ibarətdir.

Rəssamın yaradıcılığının əsas hissəsini plakat janrı təşkil edir.

Plakatlarında həyatdan götürülən canlı və konkret obraz təsvir olunur. Bununla belə, Əzim Əzimzadənin yaradıcılıq irsində karikaturalar xüsusi yer tutur. Azərbaycanda bu janrın formalaşması "Molla Nəsrəddin" jurnalı ilə bağlıdır. Ə.Əzimzadə həmin jurnalın baş rəssamı idi. O, gülüş hədəfi seçdiyi obrazların mimika və hərəkətlərini çox dəqiq və ustalıqla təsvir edirdi.

M.Ə.Sabirin "Hophopnamə"sinə 56 rəngli litoqrafiya çəkmiş Əzim Əzimzadə Cəlil Məmmədquluzadənin və Əbdürrəhim bəy Haqverdiyevin əsərləri, həmçinin xalq nağılları üçün də eyni üslubda rəsmlər silsiləsi yaratmışdı.

Ölməz karikatura ustasının məişət mövzusunda çəkilmiş "Kos-kosa", "Tonqaldan atlanırlar", "Mirasın bölüşdürülməsi", "Kəndirbaz", "Varlı evində toy", "Kasıb evində toy" akvarelləri həmin dövrün adət-ənənələrini obrazlı şəkildə əks etdirir.

Əzim Əzimzadənin yaradıcılığı nəsillər dəyişdikcə yaddaşlara yazılır, sevilir, dünəndən bugünə və sabaha yol başlayır.

Böyük karikaturaçı rəssamın əsərləri hətta "heykəl"ləşib, qranitləşib, daş yaddaşa da hopub. Paytaxt Bakının ən görməli və görkəmli məkanı sayılan İçəri şəhərdə də Əzim Əzimzadənin əsərlərinə dərin rəğbətin şahidinə çevrilmək mümkündür. İçəri şəhərin dar dalanlarından və daş küçələrindən keçib rəssamın karikaturalarının burada "daşa-dəmirə dönməsi"ni gördükdə heç kim təəccüblənmir, əksinə, üzlərdə xoş bir təbəssüm dolaşır, dodaqlara gülüş qonur.

Həmin istirahət məkanını "Gülüş parkı" adlandıranlar da var. Bura yolu düşənləri ustad rəssamın postament üstündəki büstü və yaradıcılığından bəhs edən karikaturalardan bəzilərinin tuncdan və misdən hazırlanmış rəsm nümunələri qarşılayır. Daim qonaq-qaralı olan park əsl istirahət yeridir. Çünki buradan ancaq xoş ovqatla ayrıla bilərsən. Bir sözlə, rəssamın dili ilə desək,"Köhnə Bakının tipləri" ilə tanış olmaq istəyənlər yolunu buradan salır...

*Məhəmməd NƏRİMANOĞLU,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

● Qədim şəhərin əsas nəqliyyat vasitəsi

# Faytonlar




**Orta əsr Bakısını faytonsuz təsvir etmək qeyri-mümkündür. Fayton - minik məqsədilə hazırlanmış cütatlı qədim nəqliyyat vasitəsidir. Şəhərin dağ küçələrində fayton atlarının dırnaqlarını nallayırdılar.**

XIX əsrdə fayton müasir minik avtomobillərini əvəz edirdi. Rahat nəqliyyat növü olduğu üçün ölkəmizdə ondan son zamanlara qədər istifadə edilmişdir. Şəhər nəqliyyatı hesab olunan fayton bir çox rütbəli adamlar tərəfindən kənd yerlərində də işlədilmişdir.

XIX əsrin axırlarında Bakıdan müxtəlif istiqamətlərə işləyən 418 fayton qeydə alınmışdı. Qatarların gəldiyi vaxt Bakı dəmir yolu vağzalının qarşısındakı meydanda sərnişinləri daşımaq üçün faytonlar növbəyə dururdu. Bu dövrdə faytonlarda gediş haqqını göstərən xüsusi qiymət cədvəli də olurdu. Dəmir lövhə üzərinə yazılmış cədvəl faytonun açıq görünən tərəfində bərkidilirdi. Hər bir faytonda üç-dörd adam otura bilirdi. Faytonun xarici görkəmini gözə çarpdırmaq üçün onun sahibləri çalışırdılar ki, qoşqu üçün xüsusi seçilmiş atların hər ikisi eyni böyüklükdə və eyni rəngdə olsun. Fayton yeddi əsas hissədən - ox və təkərlər, dörd ədəd yay, çanaq (faytonun evi), iki ədəd qanad, çətir və dişlərdən ibarət idi.

Fayton çanağının içərisində iki yumşaq oturacaq düzəldilirdi. Qabaq təkəri üstündə - çaxçağın uc hissəsində olan üçüncü oturacaq faytonçu üçün idi. Faytonçunun ayağını qoyduğu taxtaya şaquli istiqamətdə bərkidilmiş fayton hissəsi "iş-tox" adlanırdı. Nazik dəmir lövhədən, yaxud taxtadan hazırlanmış "iş-tox"un əsas vəzifəsi hərəkət vaxtı atların ayaqlarından qalxan tozun qarşısını almaqla faytonçunun rahatlığını təmin etmək idi. Çanağın arxa hissəsinə bərkidilmiş "çətir" adlanan hissə yağışdan, gündən və küləkdən qorunmaq məqsədilə faytonun üstünü örtürdü. Yayların köməyi ilə çətir istənilən vaxt açılıb-yığıla bilirdi. Gecə yolu işıqlandırmaq məqsədilə faytonçunun əyləşdiyi oturacağın yanlarına neftlə işləyən və ya şamla işqılandırılan iki ədəd fənər də bərkidilirdi.

● Ticarət və məşğuliyyət

# Dükan və emalatxanalar

**1806-cı ildə İçəri şəhərdə yaşayan əhalinin 7 min nəfər olmasına baxmayaraq, şəhərdə 707 dükan və usta emalatxanası fəaliyyət göstərirdi.**

Qala divarlarından kənarda açıq hava altında kömürçü dükanları vardı. Hətta qala divarları yaxınlığında "kömürçü bazarı" deyilən yer indi də mövcuddur. Usta emalatxanaları qala divarlarından kənarda keçmişdə rabad adlanan sənətkarlar məhəlləsində yerləşirdi.

Hər tacirin və mahir ustanın öz dükanı vardı. Onların alıcıları isə Bakıya müxtəlif şəhərlərdən gələn tacirlər idi. Bakıdan gəmilər İrana, Mərkəzi Asiyaya və Rusiyaya mal aparıb gətirirdilər.

Xeyriyyə aksiyası

# "Uşaq ürəkləri Qarabağda döyünür"

## Ağdam rayonunun Quzanlı qəsəbəsində bu deviz altında yüksəkixtisaslı həkim briqadası 250 uşağı müayinə etmişdir





**Qaçqın və məcburi köçkünlərin problemlərini fəaliyyətində prioritet olduğunu dəfələrlə bəyan edən və bu istiqamətdə zəruri tədbirlər görən Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq sosialyönümlü layihələr uğurla reallaşmaqdadır. Noyabr ayının 1-2-də Ağdam rayonunun Quzanlı qəsəbəsində həyata keçirilən növbəti sosial layihə də bölgə sakinləri tərəfindən minnətdarlıqla qarşılanmış, əhalidə yüksək əhvali-ruhiyyə doğurmuşdur. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Ağdam Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Uşaq ürəkləri Qarabağda döyünür" devizi altında xeyriyyə aksiya keçirilmişdir.**







Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Ağdama ezam olunmuş mobil səyyar hospitalının yüksəkixtisaslı həkimləri və peşəkar tibb personalı 2 gün ərzində Qarabağın 250 nəfər balaca sakinini tibbi müayinədən keçirmişlər. 20 nəfərin daxil olduğu həkim briqadasına Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrubi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı, Milli Məclisin deputatı, tibb elmləri doktoru Rəşad Mahmudov rəhbərlik edir. Elə ilk müsahibimiz də doktor Rəşad Mahmudov oldu. O dedi:

- Dövlət başçısının müvafiq sərancamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün strategiya" çərçivəsində həyata keçirilən bu lahiyə ölkəmizin regionlarında əhali arasında ürək-damar xəstəliklərinin erkən aşkarlanması və müalicəsində böyük əhəmiyyət kəsb edir. Belə ki, vaxtında aşkarlanmış xəstəliklərin müalicəsi daha effektli olub, müsbət nəticələr verir. Ağdamda 2 gün davam edən bu xeyriyyə aksiyasının məntiqi nəticəsi hər kəsdə bir məmnunluq, könül rahatlığı yaradır. Biz hər zaman öz vətəndaşına sahib çıxan, onun qayğılarıyla yaşayan bir dövlətin uğurla reallaşdırdığı sosial siyasətin sadəcə icraçılarıyıq. Burada müayinə etdiyimiz uşaqların çöhrəsindəki məsumluq, onların valideynlərinin minnətdarlıq dolu baxışları çəkdiyimiz zəhməti unutdurur, qəlbimizi qürur hissi ilə doldurur.

Söhbətimizi müayinədən keçirilən uşaqların valideynləri ilə də davam etdirdik. Şəhid atası Eldar Əhmədov dedi:

- Bizə hər zaman xüsusi diqqət və qayğı göstərən Prezident İlham Əliyevə minnətdarlığımızın həddi-hüdudu yoxdur. Dövlətdən hər zaman qayğı görür və bundan məmnunluq duyuruq. Yeni yaşayış qəsəbələri rahat yollar, müasir tipli məktəblər, xəstəxanalar, fasiləsiz verilən su, işıq, qaz, yeni açılan iş yerləri firavan həyatımızı təmin edən dövlət qayğısının tərkib hissəsidir. Ağdam camaatı hər zaman dövlətə, Prezidentə sədaqətli olmuşdur. Bu gün də dövlət başçısının ətrafında sıx birləşmişik. Bizdəki bu yenilməz inam Prezident İlham Əliyevin yeritdiyi müdrik siyasət sayəsində formalaşmışdır.

Eldar kişinin söhbətinə ağdamlı məcburi köçkünlər Xəyyam Mirzəyev, Məhəmmədəli Ələkbərov, Səbuhi Quliyev də qoşuldular. Onlar da bu xeyirxah aksiyanı dönə-dönə vurğulayıb, bu tədbirin zəhmətini çəkənlərə minnətdarlıqlarını bildirdilər.




Qeyd edək ki, Mərkəzi Gömrük hospitalının həkimləri EXO, USM, EKQ və digər müasir tibb avadanlıqları ilə səhhətində problem aşkarladıqları uşaqların valideynlərinə məsləhətlər verib, müvafiq müalicələr təyin etmişlər.

"Uşaq ürəkləri Qarabağda döyünür" devizi altında keçirilən bu aksiyada məqsəd cəbhə bölgəsində yaşayan uşaqların ən yüksək texnologiyalar əsasında diaqnostik tibbi müayinəsinə, eləcə də məcburi köçkünlərin yaşadıqları ərazidə yüksəkkeyfiyyətli səhiyyə xidmətindən yararlanmasına imkan yaratmaqdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Qəbələdə keçirilən "İdman festivalı"nda yüzlərlə gənc iştirak edib

**Qəbələ Olimpiya İdman Kompleksində "Açıq qapı günü" və "İradənlə qalib gəl!" şüarı altında keçirilən kütləvi idman tədbirində yüzlərlə yeniyetmə və gənc idmanın müxtəlif növləri üzrə bacarıqlarını nümayiş etdiriblər.**



Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən və 9 noyabr - Dövlət Bayrağı Gününə həsr olunan kütləvi idman tədbiri yeniyetmə və gənclərin idmana marağını artırmaq, onları sağlam həyat naminə sadə idman hərəkətləri etməyə alışdırmaq, Olimpiya İdman komplekslərini, idman meydançaları və qurğularını hamı üçün əlçatan etmək məqsədi daşıyıb.

AZƏRTAC-ın bölgə müxbirinin verdiyi məlumata görə, "İdman festivalı"nın açılışında çıxış edən Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov bildirib ki, yeni nəsil öz sağlamlıqlarına daha çox diqqət göstərir. Onlar asudə vaxtlarını bədən tərbiyəsi, fitnes, yoqa, rəqslərin öyrənilməsinə sərf etməkdə maraqlıdırlar. Gənclər fiziki sağlamlığı "məsuliyyətli vətəndaşlıq - uğurlu dövlət" birliyinin vacib hissəsi kimi dəyərləndirirlər.

Tədbirdə Olimpiya İdman Kompleksinin direktoru Mətləb Kərimov, Uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev, veteran idmançı Eyvaz Kazımov çıxış edərək respublikamızda idman sahəsinə və idmançılara göstərilən dövlət qayğısından danışıb, hər cür şəraiti olan yeni idman qurğularının gənc nəslin istifadəsinə verildiyini bildiriblər.

Şən musiqi sədaları altında davam edən festivalda idmanın müxtəlif növləri üzrə nümunəvi çıxışlar olub, təcrübəli məşqçilər ustad dərsləri keçiblər.

Sonra festival iştirakçıları Olimpiya İdman Kompleksində yaradılan şəraitlə yaxından tanış olublar.

Dünya olduğu kimi

# Nəsillərin savaşı

**1991-ci ildə Uilyam Ştraus və Nil Houv elmi ictimaiyyətə yeni "Nəsillər nəzəriyyəsi"ni təqdim etdilər. Bu nəzəriyyəyə görə, hər yeni nəslin davranışlarına, düşüncə tərzi, ünsiyyət qurma, müştəri kimi davranmalarına yaşadıqları dövrün xüsusiyyətləri təsir edir. Hər yeni nəsil özünəməxsusluqları ilə əvvəlki nəsli təəccübləndirir.**

"Nəsillər nəzəriyyəsi" sonradan daha da inkişaf edərək bir sıra idarəetmə və biznes strukturlarında tətbiq edilməyə başlandı. Düzdür, bəziləri hələ də bu nəzəriyyəyə ciddi yanaşmır, amma dərindən araşdırdıqda yaş kateqoriyalarının müəssisənin həm korporativ mədəniyyətinə, həm də biznes mühitinə çox ciddi təsir etdiyini görürük.




### X, Y, Z...

Bu nəsil nəzəriyyəsinə görə, təsnifatlandırma belədir:

*1. Ənənəçilər və ya sakit nəsil: Onlara 1925-1945-ci illərdə anadan olanlar aiddir. Bunlara "müharibə nəsli" də deyirlər.*

*2. Çoxuşaqlı nəsil (Baby Boomerlər): 1946-1963-cü illərdə doğulanlar.*

*3. X nəsli: 1964-1976-cı illərdə doğulanlar.*

*4. Y nəsli və ya "millennial"lar: 1977-1995-ci illərdə doğulanlar.*

*5. Z nəsli və ya sentenial-lar: 1996 və ondan sonra doğulanlar.*

Ümumiyyətlə, bu nəsil qruplaşmasi nəyə lazımdır? Təbii ki, hər fərdin doğulduğu və yaşadığı mühit birbaşa onun psixologiyasına təsir edir. Məsələn, Amerika və ya Kanadada, Avropada anadan olmuş şəxslərlə, Azərbaycanda və ya keçmiş Sovet İttifaqı respublikalarında doğulmuş şəxslərin psixologiyasında, dünyagörüşlərində, şəxsi və iş həyatına yanaşma tərzlərində fərqlər olacaq. Bəs bu nəsillərin bir-birindən fərqi nədir?

**Ənənəçilər və ya sakit nəsillə** iş mühitində, xüsusilə də müasir müəssisələrdə çox az qarşılaşırıq. Çünki olanların əksəriyyəti artıq təqaüddədirlər. Lakin təcrübə baxımından həmişə dəyərli olublar. Çünki sovet dövrünün dirçəlişini, eyni zamanda repressiyaların dəhşətini hiss etmiş insanlardır.

### "Gəncliyində işlə, yaşlananda ye"

**Çoxuşaqlı nəsil** - "Baby-boomer"lər demoqrafik artımın olduğu dövrdə dünyaya gələnlərdir. II Dünya müharibəsindən sonrakı dövrlərdəki şərait, kosmosa uçuş, o dövrün böyük quruculuq işləri bu insanların psixologiyasına, həyat tərzlərinə çox təsir göstərib. Bu nəsil mənsublarının gənclik illəri 1960-cı illərdəki mədəni dəyişikliklərə təsadüf edir. Onların dünyaya töhfəsi gender bərabərliyi, irqi ayrı-seçkiliyə qarşı mübarizə və ətrafa qarşı həssaslıqdır. Kollektiv iş və iclaslara əhəmiyyət vermək bu nəslin əsas xüsusiyyətlərindən biridir. İşləməyi çox sevirlər. İş onlar üçün şəxsi həyatlarından və ailələrindən də önəmlidir. Əsas devizləri "Gəncliyində işlə, yaşlananda ye" prinsipinə əsaslanıb. Güclü tərəfləri sadiq, çalışqan, ünsiyyətcil, qənaətcil olmalarıdır. Lakin dəyişiklikləri sevmir, texnoloji yeniliklərə meyilli deyillər, poçt vasitəsilə göndərilən və alınan məktubları daha etibarlı hesab edir, kompüter proqramlarını sevmir, internetdən sadəcə gündəlik xəbərləri oxumaq üçün istifadə edirlər. Sosial şəbəkələrə çoz az faizi meyillidir. Ən zəif tərəfi onlara qarşı çıxan insanlara radikal münasibət bəsləmələri və tənqidi sevməmələridir. Avtoritet olmağı sevirlər. Səbirsizdirlər.

### "Əvvəl özün, sonra iş"

**X nəsli**nin təmsilçiləri özünü cəmiyyətə müxalif sayan, tənqidi siyasi mövqeyi, özünəxas geyimi olan nəsildir. Onlar bir mövqeyə sahib olaraq, pul qazanaraq və sosiallaşaraq özlərini sübut etməyə çalışırlar. İş həyatında sadiqdirlər. Texnologiya dövrünə düşdükləri üçün məcbur qalıb ondan istifadə edirlər. İctimai məsuliyyətləri və işdəki motivasiyaları güclüdür. Qayda-qanunlara tabe olmağı sevirlər. Qadınların iş həyatına başlaması və uşaq istəyinin azalması da bu nəslə aiddir. Azadlıqlarına düşkündürlər. İş həyatında idarə olunmaqdan çox qabiliyyətlərindən istifadə edərək hədəfə çatmaq istəyirlər. Bu insanlar iş mühitində adətən ancaq özlərinə güvənmək, alternativ düşüncə qabiliyyəti, hərtərəfli məlumatlılıq kimi xüsusiyyətlərlə xarakterizə olunurlar.

Əsas devizləri "Əvvəl özün, sonra iş"dir. Fərdi uğurları daha çoxdur. İş və şəxsi həyata hörmətlə yanaşır, digər insanlardan da eyni hörməti gözləyirlər. Bu yaş kateqoriyasına aid olan şəxslər adətən tək fəaliyyət göstərməyi sevirlər, individual nailiyyət qazanmağa meyillidirlər. Karyera pillələrində uzun illər boyunca ən aşağı vəzifədən başlayaraq yuxarıya doğru və ancaq bir istiqamətdə hərəkət edirlər. Güclü tərəfi tez adaptasiya olunan və tez öyrənə bilən olmalarıdır. Hər şeyə və hər kəsə şübhə ilə yanaşırlar. Müəyyən qədər texnoloji yeniliklərə açıqdırlar, kompüter proqramlarında işləməyi bacarır, yazışmalarda e-maillərdən istifadə edirlər. "İş-həyat" balansını qura bilirlər.

### "İnternet nəsli"

**Y nəsli** bir sıra çətinliklərlə üzləşmiş nəsildir. Onların yeniyetməliyi 1990-cı illərə düşür. Dünyanın iki geosiyasi qütbündən biri SSRİ-nin dağılması, müharibə, bu günədək davam edən hərbi münaqişələrlə, iqtisadi problemlərlə məhz bu nəsil qarşılaşdı. İqtisadiyyatla bərabər dünyagörüşü, mentalitet və psixologiya da dəyişikliyə uğrayır. Bu da birbaşa onların həyat və iş fəaliyyətlərinə təsirini göstərir.

Bu nəslin müvəffəqiyyət düsturu fərqlidir. Onlar dərhal yüksək əməkhaqqı ödənilən yuxarı vəzifələrə təyin olunmaq istəyirlər ki, bu da onların başlıca mənfi xüsusiyyətidir.

Y nəsli müasir biznesin sütunudur, çünki bu şəxslər texniki cəhətdən savadlı, artıq iş saatlarında işləməyə meyilli və daim öz üzərində çalışan olurlar. Y nəslinə "internet nəsli" də deyirlər. Bu nəslin təmsilçiləri istədiklərinə nail olacaqlarını düşünürlər. Onlar valideynlərindən fərqli olaraq texnologiyaya daha yaxşı bələddirlər. Motivasiya üsulları digərlərindən fərqlidir. Qazandıqları gəlirdən çox, ictimai yardımlar, müddətsiz iş rejimi kimi özlərini rahatladan səbəblərə yönəlirlər. Onlar üçün gördükləri işin təqdir edilməsi əhəmiyyətlidir. İş vasitəsilə özlərini göstərmək, bir neçə işi eyni vaxtda görmək, hər şeyi anlamağa çalışmaq, tez qərar vermək istəyirlər. İş və özəl həyat arasında tarazlıq, məsuliyyət, hörmət, həmişə öyrənmək, əyləncə, istədiyini tez əldə etmək və s. - bunların hamısını iş həyatında axtarırlar. Tənqidi sevmirlər. Bəzilərinin tez-tez iş dəyişdirməkdən xoşları gəlir.

### İlk rəqəmsal insanlar

**Z nəslinə** "i Gen", "instant online" (həmişə xətdə) də deyilir. Ümumiyyətlə, Z nəslini müxtəlif adlarla çağırırlar: senteniallar, "ev quşları", "yeni sükut nəsli", "MənMənMən" nəsli, rəqəmsal insanlar... "Nəsillər nəzəriyyəsi"nin müəllifləri bu nəsli fərdiyyətçiliyə əhəmiyyət verən və yalnız yaşayan nəsil adlandırırlar. Bu nəsil digər nəsillərdən çox fərqlənir. Alimlərin fikrincə, tarixdə ilk dəfə insanlar öz əcdadlarından bu dərəcədə köklü şəkildə fərqlənir. Adətən ünsiyyətcil, özünə inamlı (bəzən də özündən razı), çoxyönlü, sərbəst fəaliyyətə, əyləncəyə meyilli, bununla belə, təhsilini və öz üzərində işləməyi də unutmayan bir nəsildir. İş onlar üçün sadəcə həyatlarının bir parçasıdır. Dəyişikliklərə və yeni mühitə çox tez uyğunlaşırlar. Mənfi tərəfləri isə nizam-intizamın olmaması, daim nəzarətdə olmaq ehtiyacıdır. İş yerlərində əsas ab-havaya diqqət yetirirlər. Bu nəsli tabletlərsiz, smatfonlarsız, ən son texnoloji yeniliklərsiz təsəvvür etmək mümkün deyil.

Onlar fəal şəkildə elektron alətlərdən istifadə edirlər. Bizim innovasiya adlandırdıqlarımız onlar üçün adi reallıqdır. Bu insanlar, sözün əsl mənasında, ilk rəqəmsal insanlardır. Onlar qloballaşma və postmodernizm dövründə dünyaya göz açan nəsildir. Z nəsli təbiət elmləri və texnologiyalar ilə maraqlanır.

Bugünkü şagirdlər yalnız Z nəslinin nümayəndələridir. Alimlər Z nəslinin valideynlərini "rəqəmsal immiqrantlar" adlandırırlar. Qəribədir, elə deyilmi - bu rəqəmsal dünyanın tamhüquqlu "vətəndaşları" olan Z-lərə "immiqrantlar" (X və Y-lər) rəqəmsal dünyada uğurlu olmağı öyrətməyə çalışır.

Onlar elektron vasitələr olmayan dünyanı təsəvvür etmirlər. Hər addımda elektron əlavələrdən ustalıqla istifadə edirlər. Z nəsli dünyanı virtual və real olmaqla iki hissəyə bölmür. Onların aləmində hər iki dünya tam harmoniyadadır. Multikultural mühitdə yaşayan bu nəslin nümayəndəsi həmsöhbətinin kimliyi ilə maraqlanmır. Deyirlər, bu, ən dözümlü və sülhsevər nəsil olacaq.

Lakin Z nəslinin mənfi cəhəti konsentrasiya bacarığının zəif olmasıdır. Onlarda bir obyekt üzərində konsentrasiyanın orta göstəricisi 8 saniyədir. Böyükhəcmli informasiyanı qavramaqda çətinlik çəkirlər. Z nəsli uşaqları arasında diqqət əskikliyi sindromu və hiperaktivlik geniş yayılıb. Bu səbəbdən oxumağı deyil, baxmağı üstün tuturlar. Şagirdlər minimum vaxt ərzində maksimum informasiya almağa çalışırlar. Üç toxunuşla dünyanın dörd bir tərəfindən istənilən informasiyanı ala bilirlər. Z nəsli kəşflər etmək, tədqiqat aparmaq, layihə hazırlamaq həvəskarıdır.

Hələ iş həyatına başlamadıqları üçün onlar haqqında nəsə demək çətindir. Standart işləri görmək istəməyəcəkləri, daha çox mühəndislik, biomühəndislik, robotlaşdırma və incəsənətlə məşğul olacaqları ehtimal edilir.

Z nəslindən sonra yaranacaq yeni nəsli isə psixoloqlar "Alfa nəsli" adlandırırlar. Hazırda "alfa" nəsli formalaşmaqdadır və yəqin ki, onların həm şəxsi həyat, təhsil və iş həyatlarına yanaşması çox fərqli olacaqdır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Bilirsinizmi...



- Bambuk dünyanın ən sürətlə böyüyən bitkisidir, bir gündə 90 sm-ə qədər uzanır.
- Dünyanın ən ətirli məscidi Təbriz şəhərindədir. Məscid inşa edilərkən palçığına müşk ətri əlavə edilmişdi və 600 il keçməsinə baxmayaraq hələ də xoş ətir duyulur.
- Mobil telefonların 70 faizi Çində istehsal edilir.
- Gözlərin hərəkət istiqamətini müayinə edərkən 98,3 faiz dəqiqliklə şizofreniyanı müəyyən etmək olar.
- 1827-ci ildə Əlcəzair hökmdarı fransız səfirini borcunu ödəmədiyinə görə milçəköldürənlə vurmuşdu. Bu hadisə 3 il sonra Fransanın Əlcəzairi işğal etməsinə bəhanə olmuşdu.
- Qədim Yunanıstanda borc verən borc götürənin torpağında xüsusi lövhə qoyurdu. Bu lövhə ipoteka adlanırdı. İpotekanın mənası bu idi ki, borclu vaxtında pulu qaytara bilməsəydi, torpaq kreditorun adına keçirdi.

# Misir fironunun 2200 illik sərdabası tapılıb



**Misir arxeoloqları firon IV Ptolemeyin uzun müddətdir axtarılan və 2200 il yaşı olan sərdabasını tapıblar. Qədim sərdaba Sohag rayonunun Tama qəsəbəsində yerləşən Kom Şakav kəndində tikinti işçilərinin apardıqları qazıntı zamanı təsadüfən aşkar edilib.**

Misirin Qədim Abidələr Nazirliyinin məlumatına görə, arxeoloqların həmin sərdabanın firon IV Ptolemeyə aid olması barədə rəyindən sonra ərazidə tikinti işləri dayandırılıb. Belə ki, alimlər burada Ptolemey sülaləsinin dördüncü fironunun təsviri və qədim Misir əlifbası ilə yazılmış mətn olan lövhələri aşkar ediblər. Lakin onlar hələ sərdabanın şimal-cənub divarlarını üzə çıxara bilməyiblər. Məbədin şərq-qərb divarlarının üzərində isə hər il Nil çayının daşması üçün dua edilən Hapi tanrısının quşların və çiçəklərin əhatəsində təsviri aşkar edilib.

IV Ptolemeyin eramızdan əvvəl 221-204-cü ildə Misir fironu olduğu ehtimal edilir. Onun hökmranlığı o qədər də uğurlu olmayıb. Dövləti idarə etməkdən daha çox, incəsənətə meyilli olduğu bildirilir. Tapılan qədim mətndə qeyd olunur ki, IV Ptolemeyin dövründə ən böyük gəmi inşa edilib. "Tessarakonteres" (qırx) adlanan bu gəminin 40 avar bölməsi və 4 min avarçəkəni olub.

# Turist həmişə abad məkana can atar...



Azərbaycan paytaxtının meqapolisə çevrildiyini ona getdikcə artan maraq, buraya gələn turistlərin sayı da göstərir. Turistlərin dünyanın müxtəlif guşələrindən gəldiyi isə onların geyimlərindən, müxtəlif dillərdə danışmaqlarından, dərilərinin rəngindən bəlli olur.

Bu axının özü də Azərbaycandakı inkişafın, yüksəlişin bir göstəricisidir. Təbii ki, hər bir turist gəzməyə abad, gözəl, firavan və eyni zamanda sabitliyin, əmin-amanlığın hökm sürdüyü məkan axtarır... Azərbaycan məhz belə bir diyardır.

***"Azərbaycan", Foto Ağaəli MƏMMƏDOVUNDUR***

# Sumqayıtlılar istirahətlərini teatrda keçirməyi xoşlayırlar





"Teatr bir məbəddir" deyimi əbəs yerə yaranmayıb. Çünki orada bütün sosial təbəqənin və müxtəlif yaş qrupunun nümayəndələri ilə gündəlik, canlı təmasda olmaq mümkündür.

2015-ci ildən əsaslı təmir olunan və yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrı həm maraqlı repertuar seçimi, həm də hazırlanan tamaşaların bədii estetik dəyəri ilə öndədir. Yeni mövsümün açılışından sonra bu sənət ocağında vaxtaşırı tamaşaçıları düşündürən, əyləndirən, onların estetik zövqünə xidmət edən tamaşalar təqdim olunur.

Bu həftənin istirahət günlərində Xalq yazıçısı Elçinin "Qatil" pyesinin səhnə versiyasının göstərilməsi nəzərdə tutulub. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Firidun Məhərrəmovdur. Teatrın kollektivi balacaları da nəzərə alıb. Belə ki, onlar yenidən hazırlanan "Əlibaba və qırx quldur" tamaşasına baxa biləcəklər.

Qeyd edək ki, tamaşanı ərəb xalq nağılı əsasında rejissor Vasif Məmmədov səhnələşdirib. Rolları Şəmistan Süleymanlı, Şəhla Məmmədova, Akif Mirzəyev, Sevda Hüseynova, Mətləb Səfərli, Aynur Hümmətova, İlqar İbrahimov, İlham Səfərli, Rövşən Əsgərov, Elmir Mehdiyev və başqaları ifa edəcəklər.

Uşaqlar, həmçinin iki seans olmaqla Abdulla Şaiqin "Qaraca qız" tamaşasının yeni versiyasına, Con Patrikin "Qarını öldürməliyik" dramına baxa biləcəklər.

Teatr repertuarının zənginliyi ilə də seçilir. Böyük maarifpərvər ədib Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" Əməkdar artist Namis Şirməmmədov tərəfindən səhnələşdirilərək yeni quruluşda tamaşaçılara təqdim olunacaq. Bir sözlə, Sumqayıt Dövlət Dram Teatrının kollektivi həmişə teatrsevərlərin zövqünu oxşamaqla uğurlu layihələrə imza atmaqda davam edir. Bir sözlə, sumqayıtlılar istirahətlərini əsasən teatrda keçirməyi üstün tuturlar.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir

*Əvvəli 1-ci səh.*

Azərbaycanda milli azlıqların dilləri və təhsili, ümumiyyətlə, onların etnik-mədəni dəyərlərinin düzgün tənzimlənməsi sahəsində əldə olunan nailiyyətlər Avropanın, eləcə də dünyanın əksər ölkələrində yoxdur. Ölkəmizdə 18 ümumtəhsil məktəbində tədrisin sırf rus dilində aparılması, 326 ümumtəhsil məktəbində 90 mindən çox şagirdin rus dilində təhsil alması və sair bu kimi amillər dediklərimizə bariz nümunədir. Azərbaycanda milli azlıqların dillərində qəzet, jurnal və kitabların dərc olunması, televiziya və radio verilişlərinin aparılması dünyaya bəllidir.

Müasir dövrdə Azərbaycan cəmiyyətdə etnik-mədəni müxtəlifliyin düzgün tənzimlənməsi sahəsində örnək dövlətlərdən biridir. Bunun əsas göstəricisi etnik, dini və irqi zəmində heç bir qarşıdurmanın, münaqişənin olmamasıdır.

Azərbaycan multikulturalizm siyasətinin ilk dəfə meydana gəldiyi Qərb dövlətlərindən də səmərəli multikulturalizm modeli təklif edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Ölkəmiz dünyada multikulturalizm mərkəzi kimi tanınır və bu sahədəki mövqeyi yüksək qiymətləndirilir. Xarici ölkələrin mətbuatı da dəfələrlə Azərbaycanın multikulturalizm sahəsində təcrübəsinin öyrənilməsinin vacibliyini qeyd etmişdir: Prezident İlham Əliyev bununla bağlı demişdir: "Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır".

Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti ölkəmizi çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun məkanı etmişdir. Bu gün mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

Azərbaycanda tolerantlıq mühiti ən yüksək səviyyədə olduğu üçün ölkəmizdə keçirilən millətlər və dinlər arasında münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar son illər ənənə halını alıb. Qoşulmama Hərəkatının dünyanın 60-dan çox ölkəsinin dövlət və hökumət başçılarının iştirak etdiyi XVIII Zirvə Görüşünün də Bakı şəhərində keçirilməsi bilavasitə Azərbaycanın beynəlxalq aləmdə tanınması, tolerantlıq mühitinin genişlənməsi və inkişafı ilə bağlıdır. Səkkiz ildir ki, Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu forumlar UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ISESCO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır.

Respublikamızda dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikuturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğində Heydər Əliyev Fondunun çox böyük xidməti var. Azərbaycanda və xarici ölkələrdə mədəni-kütləvi tədbirlər Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilir. Multikulturalizmin müxtəlif modellərinin - ABŞ, İsveç, Avstraliya, Kanada modellərinin olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model xarici ölkələrdə rəğbətlə qarşılanır və tətbiq edilir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. ABŞ-ın Yuta və Oreqon ştatlarının senat və nümayəndələr palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannaməsi buna misal ola bilər.

Bu gün multikulturalizmin alternativi yoxdur. Odur ki, mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünya xalqları üçün nümunə göstərilməsi qürurvericidir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Qadın şahmatçılarımız Avropa çempionatında Ermənistan yığmasını məğlub edərək bürünc medal qazanıblar



Batumidə komandalar arasında Avropa çempionatında qadın şahmatçılarımız böyük uğura imza ataraq bürünc medal qazanıblar. AZƏRTAC xəbər verir ki, son turda Ermənistan yığması ilə mübarizə aparan şahmatçılarımız Günay Məmmədzadə Lilit Mkrtçyanı məğlub edib. Ülviyyə Fətəliyeva Mariya Gevorqyan, Xanım Balacayeva Elina Danielyan, Gülnar Məmmədova isə Anna Sarqsyanla xalı yarı bölüblər.

Beləliklə, görüş Azərbaycan millisinin 2,5:1,5 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla da, Azərbaycanın qadınlardan ibarət yığması 27 ildən sonra (1992-ci ildə Avropa çempionatında bürünc medal) qitə çempionatında üçüncü yerə layiq görülüb.

Kişilərdən ibarət komandamızın sonuncu turda Sloveniya yığması ilə qarşılaşması 3:1 hesablı qələbə ilə başa çatıb. Yekun nəticəyə görə kişi şahmatçılarımız 11 xalla hazırda 5-ci pillədə qərarlaşıblar.

Qeyd edək ki, Azərbaycan şahmatında son aylar böyük uğurlar əldə edilib. Qrossmeysterimiz Teymur Rəcəbov dünya kubokunun sahibi olub. On dörd yaşlılar arasında təmsilçimiz Aydın Süleymanlı dünya çempionu titulunu qazanıb.

Xatırladaq ki, Azərbaycanın kişi şahmatçıları üç dəfə - 2009-cu, 2013-cü və 2017-ci illərdə Avropa çempionu adına layiq görülüblər. Komandamız 2011-ci ildə qitə çempionatının gümüş, 2007-ci ildə isə bürünc medallarını qazanıb.

# Beynəlxalq aləm

## ABŞ-ın dövlət borcu yeni rekord vurdu



ABŞ-ın dövlət borcu yeni rekord göstəriciyə çatmışdır - 23 trilyon dollar. Bu məlumat ABŞ Maliyyə Nazirliyinin illik hesabatında yer almışdır.

Beynəlxalq Valyuta Fondunun proqnozuna görə, ABŞ-ın dövlət borcu 2023-cü ildə ÜDM-in 117 faizini təşkil edəcək. Ölkənin hazırkı borc problemi 2007-2008-ci illər maliyyə-iqtisad böhranının mirasıdır. O vaxtdan bəri ABŞ-da dövlət borcunun yuxarı həddini bir neçə dəfə artırmaq lazım gəlmişdir. Bununla əlaqədar hər dəfə demokratlarla respublikaçılar arasında siyasi mübahisələr qızışır.

Barak Obamanın səkkizillik prezidentliyi dövründə ABŞ-ın dövlət borcu 9 trilyon dollardan çox artıb təxminən 20 trilyon dollara çatmışdır.

Amerikalı iqtisadçılar bildirirlər ki, 2026-cı ildə bu rəqəm 30 trilyon dollar təşkil edə bilər.

## İran ən yeni texnologiyaya əsaslanan "Ramjet" tipli mühərrik istehsal edib



"Fars news" agentliyi xəbər verir ki, bu tip mühərriklər əsasən hərbi sahədə istifadə olunur. Pilotsuz uçan aparatlar, uzaq məsafədəki hədəfləri vurmaq üçün raketlər və hərbi dəniz donanmalarında istifadə olunan torpedalar məhz "Ramjet" tipli mühərriklərlə işləyir. Ən başlıcası isə bu mühərriklə təchiz olunan döyüş raketləri uzaq hədəfləri dəqiq vurur.

Dünyada "Ramjet" tipli mühərriklər istehsal edən çox az dövlət var.

## Türkiyədə təhlükəli terrorçu zərərsizləşdirildi




Türkiyə təhlükəsizlik qüvvələri antiterror əməliyyatı çərçivəsində Van vilayətində PKK terrorçu təşkilatının üzvü, Karker ləqəbi ilə tanınan Mühacir Dumanı məhv etmişdir. Bu barədə Daxili İşlər Nazirliyi məlumat vermişdir.

Dumanın adı nazirliyin axtarışda olan terrorçuların "boz siyahısı"nda yer almışdı. Məlumata görə, xüsusi əməliyyat zamanı Dumandan başqa daha bir terrorçu zərərsizləşdirilmişdir.

Mühacir Dumanın tutulmasında yardıma görə hakimiyyət orqanları 300 min Türkiyə lirəsi məbləğində mükafat təyin etmişdi.

## Kanadada dağıdıcı qasırğa



Dünən Kanadanın Kvebek əyalətində əlverişsiz hava nəticəsində bir nəfər həlak olmuş, bir nəfər yaralanmışdır. Bu barədə CBS telekanalı xəbər verir.

Məlumata görə, Monrealda güclü külək ağacı bir kişinin üstünə yıxmışdır. Ölənin 63 yaşı var idi. Şəhərin başqa bir sakini üstünə daş düşməsi nəticəsində xəsarət almışdır.

Güclü qasırğa ilə əlaqədar regionda aviasiya reysləri təxirə salınmışdır. Bir milyona yaxın adam işıqsız qalmışdır.

## Əfqanıstanda 9 məktəbli həlak oldu



Əfqanıstanın şimal-şərqində baş vermiş partlayış nəticəsində 9 məktəbli həlak olmuşdur. Bu barədə "Pajvak" agentliyi xəbər verir.

Məlumata görə, hadisə Tahar əyalətində baş vermişdir. Partlayış Darkad rayonunda uşaqlar məktəbə gedərkən törədilmişdir.

## Malidə dəhşətli terror aktı

Malinin Nigerlə sərhədindəki blokpostda terrorçuların hücumu nəticəsində 35 hərbi qulluqçu həlak olmuşdur. Bu barədə Mali ordusu məlumat vermişdir.

Terrorçular Menaka rayonunda blokposta hücum etmişlər. Hazırda ordu vəziyyətə nəzarət edir.

# Hava şəraiti meteohəssas insanlar üçün əlverişsiz olacaq

Ölkə ərazisində bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 8-10°, gündüz 11-13° isti, Bakıda gecə 8-10°, gündüz 11-13° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 767 millimetr civə sütunundan 773 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, Abşeron yarımadasında yağışlı, küləkli hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

Azərbaycanın rayonlarının bəzi yerlərində yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi şərq rayonlarında intensiv olacağı ehtimalı var. Gündüz əksər rayonlarda əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 14-19° isti, dağlarda gecə 1-6°, gündüz 7-11° isti olacağı ehtimal edilir.

# *Müdafiə Nazirliyi:* "Ermənistan ordusu atəşkəs rejimini 22 dəfə pozub"

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8890
Sifariş 3620
Qiyməti 40 qəpik